RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 183 (8776) ÇƏRŞƏNBƏ AXŞAMI, 31 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# ZƏFƏR YOLU - qələbəmizin simvolu

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna və Şuşa şəhərinə səfər ediblər




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısının sərəncamı ilə təsdiq edilmiş işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Zəfər yolunun tikintisi başa çatmaq üzrədir. İki-üç hərəkət zolaqlı yolun uzunluğu 101 kilometrdir. Artıq yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınıb. Digər hissələrdə isə işlər davam etdirilir. Yolda körpülər və yeraltı keçidlər inşa edilib.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun ölkəmizin mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdikləri cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu dövlət başçısı tərəfindən Zəfər yolu adlandırılıb.

Bax: səh. 2-8

# Ulu Öndərin ucaltdığı, vandalların uçurtduğu Vaqifin məqbərəsi əvvəlki əzəmətinə qaytarıldı

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər



*Avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak ediblər.*

*Dövlət başçısı açılış mərasimində çıxış etdi.*

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli mərasim iştirakçıları.

Xahiş edirəm ki, ilk növbədə, Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışını qeyd edirik. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Vaqifin məqbərəsi bütün digər tarixi abidələrimiz kimi işğal edilmiş torpaqlarda erməni vandalizminə məruz qalmışdır. Bu gün isə məqbərə tam bərpa edilib və dünən məqbərənin ikinci açılışı olmuşdur.

Bildiyiniz kimi, Molla Pənah Vaqifin məqbərəsinin Şuşada ucaldılması qərarını Ulu Öndər Heydər Əliyev vermişdir. Onun təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də burada qarlı, şaxtalı havada bu məqbərənin açılışı olmuşdur. Bu, sıradan olan hadisə deyildi.

Ardı 5-ci səh.

## Prezident İlham Əliyev “Tokio-2020” Yay Paralimpiya Oyunlarında növbəti qızıl medallar qazanan idmançılarımızı təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Tokio-2020” Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalları qazandıran idmançılarımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı bununla bağlı “Twitter”dəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: “Növbəti qızıl medal sevincini bizə bəxş etdikləri üçün Dürsədəf Kərimovaya, rekordçularımız Həmid Heydəri və Elvin Astanova təşəkkür edir, onları qələbələri münasibətilə ürəkdən təbrik edirəm!”

## Prezident İlham Əliyev “Tokio-2020” Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Tokio-2020” Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı bununla bağlı “Twitter”dəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: “Tokio-2020” Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən komandamızın üzvləri - İlham Zəkiyev, Namiq Abbaslı və Pərvin Məmmədovu səmimi-qəlbdən təbrik edirəm!”

## Birinci vitse-prezident Mehriban Əliyeva “Tokio-2020” Yay Paralimpiya Oyunlarında növbəti medallar qazanan idmançılarımızı təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva “Tokio-2020” Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl və bürünc medallar qazandıran idmançılarımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı “Instagram” hesabında etdiyi paylaşımda deyilir:

“Bizim yeni qələbələrimiz, növbəti medallarımız! İdmançılarımızı - qızıl medal sahibləri, dünya rekordunu yeniləmiş Elvin Astanovu, Dürsədəf Kərimovanı və bürünc medal qazanmış İlham Zəkiyevi səmimi-qəlbdən təbrik edirəm. Sizin hamınıza və milli paralimpiya yığmamızın digər üzvlərinə möhkəm cansağlığı, yeni nailiyyətlər arzulayıram”.

## Birinci vitse-prezident Mehriban Əliyeva “Tokio-2020” Yay Paralimpiya Oyunlarında qızıl medal qazanan atletimizi təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində “Tokio-2020” Yay Paralimpiya Oyunlarında milli yığmamızın qızıl medal qazanan atleti Həmid Heydərini təbrik edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Bizim növbəti qələbəmiz! Milli yığmamızın atleti Həmid Heydəri Azərbaycan üçün yeddinci qızıl medalı qazandı! Nizə atma yarışlarında o, 51,42 metr nəticə göstərərək yeni dünya rekorduna imza atdı. İdmançımızı səmimi-qəlbdən təbrik edir və milli yığmamıza yeni nailiyyətlər arzulayıram!”

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanında görülən işlərlə tanış olublar







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.







AZƏRTAC xəbər verir ki, birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanının videogörüntüsünü paylaşıb. Paylaşımda bu sözlər qeyd olunur: "İşğaldan azad olunmuş ərazilərə növbəti səfərimiz. Şuşaya gedərkən".

Avtomobildə çəkilən videogörüntüdə Prezident İlham Əliyev deyir: "Füzuli Beynəlxalq Hava Limanına yaxınlaşırıq. Sol tərəfdə aerovağzal kompleksidir, qarşıda uçuş-enmə zolağı. Cəmi bir neçə ay ərzində hava limanı demək olar ki, artıq açılışa hazırlaşır. Hava limanının inşası bu il başlamışdır. Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməmişdir. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum, indi isə gəlirik inşaat işləri ilə tanış olmağa. Bu aeroport Qarabağın hava qapısıdır".

Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunur. Baqaj konveyerlərinin, qeydiyyat və digər sistemlərin işə salınması nəzərə alınmaqla, sentyabr ayının sonuna qədər sərnişin terminalının istismara verilməsi işləri tam başa çatdırılacaq.

Hava limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Aeroport istənilən tip hava gəmisini qəbul etməyə imkan verəcək. Burada perron da inşa edilib. Avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə (HHİ) qülləsinin tikintisi başa çatdırılıb. Bunun sayəsində Füzuli hava limanına ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olacaq.

Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə terminalın qarşısında 150 avtomobil üçün nəzərdə tutulmuş dayanacaq inşa olunub. Bundan başqa, Füzuli Beynəlxalq Hava Limanına giriş üçün yolun tikintisi, həmçinin aeroportun ərazisində yaşıllaşdırma işləri aparılır.

Prezident İlham Əliyevin tapşırığı ilə Füzuli rayonunda belə bir qısa müddətdə bu cür ən müasir standartlara cavab verən beynəlxalq hava limanının inşasının həyata keçirilməsi sözün əsl mənasında misli görünməmiş hadisədir və bu, bir daha Azərbaycan Prezidentinin mənfur düşməndən azad olunmuş torpaqlarımızda böyük yenidənqurma və tikinti işlərinin aparılması barədə fikirlərinin bariz nümunəsidir.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Qarabağ" hotelinin açılışında iştirak ediblər













Avqustun 29-da Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan "Qarabağ" hotelinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Qeyd edək ki, 1980-ci ildə inşa edilən hotelin binası 1992-ci ilin mayında Şuşa şəhərinin işğalı nəticəsində öz fəaliyyətini dayandırıb və baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Şuşa şəhəri müzəffər Azərbaycan Ordusunun şanlı Zəfəri nəticəsində Ermənistanın işğalından azad edildikdən sonra 2021-ci ildə Prezident İlham Əliyevin tapşırığına əsasən hoteldə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilməyə başlandı. Müasir səviyyəyə çatdırılan hoteldə Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Burada müxtəlif kateqoriyalı otaqlar var. Binada restoran və bar qonaqların ixtiyarına veriləcək. Hoteldə işgüzar görüşlərin və tədbirlərin keçirilməsi üçün konfrans otağı yaradılıb. Hotel ərazisində avtomobil dayanacağı da inşa edilib. Hotelə yaxın olan parkın ərazisi abadlaşdırılıb, fəvvarələr qurulub və park işğaldan əvvəlki görkəminə qaytarılıb.

# Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada bərpa işləri aparılır



Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada bərpa işləri aparılır.
AZƏRTAC xəbər verir ki, avqustun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva inzibati binada aparılan bərpa işləri ilə tanış olublar.

# Dahi Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşada büstü açılıb







Avqustun 29-da Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Məlumat verildi ki, Molla Pənah Vaqifin 1957-ci ildə tuncdan hazırlanan büstü 1958-ci ildə Cıdır düzünə yaxın ərazidə qəbirüstü abidə kimi yerləşdirilib, daha sonra 1976-cı ildə şairin Şuşadakı evinin yaxınlığına köçürülüb. 1982-ci ildə Vaqifin məqbərəsinin açılışından əvvəl büst və onun ətrafı təmir edilib, abidənin postamenti dəyişdirilib. Büst 1992-ci ildə Şuşa şəhərinin işğalı zamanı erməni vandalizminə məruz qalaraq dağıdılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə əsasən, abidə bu il onun müəllifi, Əməkdar incəsənət xadimi Həyat Abdullayevanın ilkin eskiz layihəsi əsasında yenidən qurulub.

Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan büst öz əvvəlki yerinə qaytarılaraq Molla Pənah Vaqifin Şuşadakı evinin yaxınlığında quraşdırılıb.

# Şuşada dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpadan sonra açılışı olub

Avqustun 29-da Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı olub.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər, görülən işlərlə tanış olublar.

Qeyd edək ki, 1982-ci il yanvarın 14-də xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan əzəmətli məqbərənin açılışı olmuşdu. Məhz bu səfər çərçivəsində Ümummilli Lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verdi və həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günləri keçirildi.

Muzey-məqbərə kompleksi Cıdır düzünə yaxın bir ərazidə dahi şairin məzarı üstündə inşa edilmişdi. Dördkünc quruluşa malik və mərmərlə bəzədilən türbənin inşası məsələsi həll edilərkən ətrafdakı dağ mənzərəsi və şəhərsalma xüsusiyyəti nəzərə alınaraq, Azərbaycanın qülləvari türbələrinin kompozisiya quruluşundan istifadə edilmişdi. Məqbərənin inşasında xalq memarlığının yerli ənənələrinə, monumental-dekorativ və tətbiqi plastika vasitələrinə yer verilmişdi. Türbənin daxilində Molla Pənah Vaqifin heykəltəraş Albert Mustafayev tərəfindən hazırlanan büstü qoyulmuşdu. 1992-ci ildə Şuşa şəhərinin Ermənistan tərəfindən işğalı nəticəsində kompleksin binası və burada sərgilənən bütün eksponatlar məhv edildi. Müzəffər Azərbaycan Ordusunun şanlı Zəfərindən sonra, 39 il əvvəl məqbərənin açıldığı gündə - yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı məqbərəni ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, burada təmir-bərpa və yenidənqurma işlərinə start verildi.







Məqbərədə təmir-bərpa və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. 2021-ci ilin mart ayından başlayaraq türbə ilkin mərhələdə konstruktiv müayinədən keçirilərək, tələb olunan hissələr üzrə gücləndirmə tədbirləri araşdırılıb və bu çərçivədə işçi layihələr hazırlanıb. İşçi layihələr əsasında xarici mütəxəssislər tərəfindən təyin edilən xüsusi kimyəvi materiallarla elementlərin konstruktiv bərpa işləri yerinə yetirilib, korroziyaya qarşı əlavə tədbirlər görülüb. Həmçinin abidənin dam örtüyü yenidən qurulub. Topoqrafiya işləri nəticəsində əldə edilən məlumatlar üzrə, o cümlədən ərazidə axtarış işləri keçirməklə qırılmış, dağılmış üzlük hissələrin əldə edilməsi ilə birlikdə abidənin ilkin ölçülərinin bərpası məqsədilə memarlıq işçi layihələri hazırlanıb. Bu layihələr əsasında isə fasadın və daxili hissələrin divar səthləri mərmərlə üzlənib və abidənin tarixi görkəmi bərpa edilib.

Bundan əlavə, ərazidən tapılan tökmə alüminium şəbəkə nümunəsi əsasında hazırlanmış işçi layihələr üzrə bütün şəbəkə və dekorlar, o cümlədən giriş qapısı tökmə üsulu ilə alüminium materialdan tarixi ölçüləri qorunmaqla hazırlanıb, Şuşa şəhərinə gətirilərək layihə üzrə quraşdırılıb. Salonun mərkəzində qəbir daşı üzərində qara mərmərdən sənduqə qoyulub, ilkin formanın bərpası nəzərə alınmaqla büst ağ mərmərdən işlənib hazırlanaraq quraşdırılıb.

Abidənin hər detalında tarixi görkəm qorunub saxlanılıb. Abidə kompleksinin bütün infrastrukturu yenidən qurulub, yağış suları üçün drenaj xətləri və elektrik xətləri çəkilib quraşdırılıb. Landşaftda istinad divarları və meydança tarixi görkəmi çərçivəsində qranitlə üzlənib. Eyni zamanda ətrafda o dövrün şəkillərində əks olunduğu kimi, müxtəlif növ qızılgül kolları əkilib.

# Şuşada Bülbülün ev-muzeyinin bərpadan sonra açılışı olub

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün avqustun 29-da Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı olub.





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Qeyd edək ki, görkəmli musiqiçi 1982-ci ildən ev-muzeyi kimi fəaliyyət göstərən bu evdə anadan olub və uşaqlıq illərini burada keçirib.

Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi 1982-ci il 31 avqust tarixli qərarı ilə Bülbülün doğulduğu və yaşadığı evin ev-muzeyinə çevrilməsi barədə qərar qəbul edib. Bina 1982-1983-cü illərdə təmir olunub, muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib.

Muzeydə Bülbülün uşaqlıq illərinə aid şəkillər, şəxsi əşyalarından bəziləri, o cümlədən onun qavalı da nümayiş etdirilirdi. Muzeydə Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyətini əks etdirən 9 minə yaxın sənəd toplanmışdı. Burada, həmçinin Azərbaycanda yeni vokal məktəbinin yaradılmasında, xalq musiqisinin öyrənilməsi və təbliğində Bülbülün çoxillik səmərəli yaradıcı işini təsdiq edən materiallar nümayiş etdirilirdi.

Ardı 4-cü səh.

# Şuşada Bülbülün ev-muzeyinin bərpadan sonra açılışı olub





*Əvvəli 3-cü səh.*

Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb.

Bu il yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı ev-muzeyini ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən muzeydə aparılan təmir-bərpa və yenidənqurma işləri artıq başa çatıb.

Bərpa işləri zamanı eyvana çıxan divarlarda suvaq altından daş üzərində yonulmuş ərəb əlifbası ilə iki yazı və Günəş simvolunu əks etdirən təsvir aşkar olunub. Yazıların birində Qurandan ayə, digərində isə evin tikilmə tarixi qeyd edilib. Divarın üzərində yeni aşkar olunmuş yazıda göstərilir ki, bina 1788-ci ildə inşa edilib. Bina tipoloji mənsubiyyətinə görə Qarabağ və Azərbaycanın tarixi yaşayış binalarının xüsusiyyətini özündə əks etdirir, otaqların daxili quruluşu Azərbaycanın ənənəvi evlərinə xasdır.

Şuşa şəhərinin işğalı zamanı ev yararsız hala salınıb, yükdaşıyıcı divarlarında çatlar əmələ gəlib və divarlar çöküb. Bərpa zamanı bütün yükdaşıyıcı divarların bünövrəsi möhkəmləndirilib, çat olan divar hissələrində yenidənqurma işləri aparılıb. Binanın daxili otaqlarında çürümüş taxta döşəmələr yeniləri ilə əvəz olunub. Dam örtüyü, qapı və pəncərələri çürüdüyündən və istismara yararsız halda olduğundan binanın tarixi görkəmini qorumaq şərti ilə yenisi ilə əvəz edilib.

Bülbülün ev-muzeyinə məxsus həyətyanı sahə ilkin görkəmi saxlanılmaqla bərpa olunub.

Hazırda binada Bülbülün muzey ekspozisiyası qurulub. Ev-muzeyinin həyətində Bülbülün yeni hazırlanan büstü ucaldılıb.

Şuşa şəhəri işğalda olduğu dövrdə Bülbülün vandalizmə məruz qalmış büstü isə erməni vəhşiliyini nümayiş etdirmək məqsədilə saxlanılıb.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Üzeyir Hacıbəylinin heykəlinin açılışında iştirak ediblər

Avqustun 29-da Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlət başçısı heykəlin üzərindəki örtüyü götürdü.

Qeyd edək ki, 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdı. Heykəltəraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilib. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli hazırlanıb.







Məlumat verildi ki, heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılıb.

Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Abidə heykəltəraşlar Aslan Rüstəmov, Teymur Rüstəmov, Mahmud Rüstəmov tərəfindən hazırlanıb.

# Şuşada “Hotel və Konfrans Mərkəzi”nin təməli qoyulub

Avqustun 29-da Şuşada “Hotel və Konfrans Mərkəzi”nin təməli qoyulub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təməlqoyma mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev “Hotel və Konfrans Mərkəzi”nin təməlini qoydu.

Qeyd edək ki, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Qədim dövrdə Şuşa Böyük İpək yolunun əsas qovşaqlarından biri idi. Avropa və Şərq şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırdı. Bu şəhərlərdən davamlı gəlib-gedən tacirlərin gətirdikləri malları saxlamaq üçün karvansaraylar tikilirdi. Karvansaray konseptini əsas götürərək, Şuşa şəhərinin mərkəzində, Zəfər yolunun üzərində yerləşəcək 5 ulduzlu “Hotel və Konfrans Mərkəzi” müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib.

Mərkəz 2,8 hektar ərazini əhatə edəcək. Memarlıq adət-ənənələrini özündə əks etdirən xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq ediləcək. Həmçinin fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunacaq. Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının - XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəylinin ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan hazırlanıb. Beş mərtəbədən və 150 nömrədən ibarət “Hotel və Konfrans Mərkəzi”ndə otaqlar, restoranlar, konfrans korpusları, daxili həyətlər olacaq.





# Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma burada görüləcək işlər barədə məlumat verildi.

Qeyd edək ki, görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir Hacıbəylinin ev-muzeyi Şuşa şəhərində Ermənistanın işğalınadək fəaliyyət göstərib.

Erməni işğalçı qüvvələrinin vəhşiliyi nəticəsində muzeydə dahi bəstəkarın həyat və yaradıcılığı ilə bağlı 1700 eksponatdan yalnız 100-ə yaxını salamat qalıb, qalanı məhv edilib.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondu tərəfindən ev-muzeyində aparılacaq işlər üzrə layihə hazırlanıb.

Ev-muzeyində həyata keçiriləcək işlərdən sonra 1992-ci ildə muzeyin Bakıya aparılmış eksponatlarının burada yerləşdirilməsi nəzərdə tutulur. Bunlar Üzeyir Hacıbəylinin fotoşəkilləri, məktubları, əsərlərinin partituraları və şəxsi əşyalarıdır.





# Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Şuşa şəhərinin baş planı təqdim olunub

Avqustun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Şuşa şəhərinin baş planı təqdim olunub.





AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma məlumat verildi ki, Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulacaq və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb.

Şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun inşası da nəzərdə tutulur. Həmçinin şəhərin baş planında ictimai dayanacaqların da yerləşmə yerləri müəyyən olunub. Bu dayanacaqlar elə qoyulacaq ki, şəhərin küçələrinə giriş-çıxışa maneə olmasın.

Baş plan hazırlanarkən, şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulur.

Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. Avqustun 29-da təməli qoyulan 1-ci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar da Şuşaya xas memarlıq üslubu ilə tikiləcək. Sonra Azərbaycan Prezidenti İlham Əliyev 1-ci məhəllənin təməlini qoydu.

# Ulu Öndərin ucaltdığı, vandalların uçurtduğu Vaqifin məqbərəsi əvvəlki əzəmətinə qaytarıldı

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər



## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*

Çünki o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi. Bildiyiniz kimi, uzun illər ermənilər Şuşaya iddia edirdilər, Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar. Halbuki bunun üçün heç bir tarixi, mədəni əsas yox idi. Onu da nəzərə almalıyıq ki, Molla Pənah Vaqif təkcə şair yox, eyni zamanda, Qarabağ xanının vəziri idi. Sovet dövründə sovet ideologiyası, sovet hökumətinin tarixlə bağlı yanaşması belə idi ki, xanlıqlar tarixin qara ləkəsi kimi qələmə verilirdi. Bütün bunlara baxmayaraq, Ulu Öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldılmışdır və bir daha Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi öz yerini tapmışdır.

Əfsuslar olsun ki, Şuşa işğala məruz qalandan sonra bütün tarixi abidələr, mədəni abidələr, o cümlədən Vaqifin məqbərəsi vandallar tərəfindən dağıdılmışdır. Şuşanın işğalı xalqımızın böyük faciəsi idi. Çünki Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır. Şuşanın işğalından sonra digər rayonlar, digər şəhərlər işğala məruz qaldı. Çünki Şuşanın strateji əhəmiyyəti, əlbəttə ki, bizim üçün itirilmiş oldu və düşmən bundan istifadə edərək, ondan bir neçə gün sonra - 1992-ci ilin mayında Laçını da işğal etdi. Ondan bir il sonra - 1993-cü ilin aprelində Kəlbəcəri işğal etdi və beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Ermənistan arasında coğrafi bağlantı yaradıldı. Bizim məğlubiyyətimizin qaçılmaz olması göz qabağında idi, nəzərə alsaq ki, o vaxt Azərbaycanda hərc-mərclik dövrü idi, nizami ordu yox idi, vətəndaş qarşıdurması baş vermişdi.

Şuşanın itirilməsi digər rayonların itirilməsinə təkan vermişdi. Ancaq biz Azərbaycan xalqı olaraq heç vaxt bu işğalla barışmaq fikrində deyildik. İşğal dövründə mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, işğal edilmiş bütün torpaqları, o cümlədən Şuşanı nəyin bahasına olursa-olsun işğalçılardan azad edəcəyik.

Bildiyiniz kimi, danışıqlar prosesi 30 ilə yaxın davam etdi, bunun heç bir nəticəsi olmadı. İndiki hadisələrin gedişatı, İkinci Qarabağ müharibəsindəki dövr və beynəlxalq güclərin hərəkətləri onu göstərir ki, bu məsələ heç vaxt danışıqlar yolu ilə öz həllini tapa bilməzdi. Çünki bizi, azərbaycanlıları bu vəziyyətlə barışdırmaq istəyirdilər. Bu vəziyyəti, yəni, dondurulmuş münaqişəni alternativsiz bir variant kimi təqdim etməyə çalışırdılar. Bizim isə tam başqa fikrimiz var idi və mən bunu heç vaxt gizlətmirdim. Deyirdim ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, biz öz ərazi bütövlüyümüzü müharibə yolu ilə bərpa edəcəyik. Beynəlxalq hüququn bütün norma və prinsipləri bu haqqı bizə tanıyır. BMT-nin Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri, tarixi ədalət bu haqqı bizə verib. Biz buna nail olduq.

Şuşa Azərbaycan şəhəridir. Şuşanın təməlini, - hamımız yaxşı bilirik, - 1752-ci ildə Pənahəli xan qoymuşdur və gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik.

44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır. Müharibədən sonra mən ilk dəfə Şuşaya bu il yanvarın 14-də gəlmişdim. Bu tarix də təsadüfən seçilmədi. Çünki o tarixdən 39 il əvvəl burada Ulu Öndərin iştirakı ilə Vaqifin məqbərəsi açılmışdı və məhz yanvarın 14-də mənim buraya gəlməyimin çox böyük rəmzi mənası var idi. Buraya ilk səfərimdə ilk göstərişlərdən biri də o oldu ki, Vaqifin məqbərəsi bərpa edilsin, çünki vandallar bu məqbərəni dağıtmışdılar, sökmüşdülər. Vaqifin içərideki barelyefini, sinə daşını sökmüşdülər. Yəni, onlara xas olan vandalizm törətmişdilər, necə ki, azad edilmiş bütün başqa torpaqlarda biz bunun şahidiyik. Məqbərənin bərpasını Heydər Əliyev Fondu öz üzərinə götürdü və bu gün biz bu məqbərənin önündə Vaqif Poeziya Günlərinə start veririk. Vaqif Poeziya Günləri də bərpa edildi, "Xarıbülbül" festivalı da bərpa edildi. Bu ilin may ayında biz çox böyük coşqu ilə bu festivalı keçirdik və bu tarixi bərpa etdik.

İlk səfərim çərçivəsində Şuşanın bərpası ilə bağlı bütün lazımi göstərişlər verildi və yanvar ayından bugünə qədər - 7 ay ərzində artıq çox böyük işlər görülüb. Şuşaya ikinci-üçüncü dəfə gələnlər bunu görürlər. Bəli, şəhər hələ ki dağılmış vəziyyətdədir. Çünki ermənilər nə qədər çalışsalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb.

Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi artıq bərpa edildi. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü bərpa edildi, dünən onun ikinci açılışı olmuşdur. Üç məsciddə təmir-bərpa işləri gedir. Yuxarı Gövhərağa məscidinin təmiri, demək olar ki, bitmək üzrədir. Saatlı və Aşağı Gövhərağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verildi. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. Natəvan bulağı bərpa edildi, indi su gəlir. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz? Ondan sonra "Xarıbülbül" hoteli istifadəyə verildi, artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı.

Ermənilər tərəfindən güllələbaran edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mənim tərəfimdən mərkəzi meydanda qoyuldu. Dünən Şuşanın dirçəlişinin növbəti mərhələsi idi. Qeyd etdiyim kimi, Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, onu da mənfur düşmən dağıtmışdı. Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpası ilə bağlı göstəriş verildi. Dünən Polad Bülbüloğlu ilə və onun oğlu, Bülbülün nəvəsi ilə birlikdə Bülbülün evinin açılışını biz qeyd etdik. Polad atasının evini bərpa etdi, indi çox gözəl muzey yaradılmışdır. Dünən "Qarabağ" hoteli əsaslı təmirdən sonra öz qapılarını yenidən qonaqların üzünə açdı. İşğal dövründə "Qarabağ" hoteli nə gündə idi, onu biz işğaldan sonra görmüşdük. Cəmi iki mərtəbəsi işləyirdi, nə su var idi, nə işıq var idi. Bərbad vəziyyətdə idi, dağılmış vəziyyətdə idi. O kadrlar var. O da bərpa edildi və hesab edirəm ki, bu tədbirlərin içində ən önəmlisi yeni yaşayış kompleksinin təməl daşının qoyulmasıdır.

Yeni hotel beşulduzlu olacaq. Orada 150 otaq olacaq. Hazırda Şuşada "Qarabağ" və "Xarıbülbül" hotellərində 150 otaq mövcuddur, 300 otaq, böyük konfrans zalı və tədbirlər üçün yerlər olacaqdır. Beşulduzlu hotelin yeri də mənim tərəfimdən seçildi. Mənfur düşmən həmin yerdə dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamenti üçün bina inşa edirdi. O da bizə sataşmaq idi. "Dağlıq Qarabağ respublikası" anlayışı yoxdur. Artıq o binanın bünövrəsi qoyulmuşdu və daş işləri artıq tamamlanmışdı. Mənim göstərişimlə bu şeytan yuvası darmadağın edildi.

Beşulduzlu hotel gözəl yerdə inşa ediləcək. Ən önəmli tədbir dünən yeni yaşayış kompleksinin təməl daşının qoyulması idi. Bu yaşayış kompleksi Şuşanın baş planı əsasında inşa ediləcək. Şuşanın baş planı təsdiq edildi və çox müfəssəl, gözəl işlənmiş plandır. Birinci mərhələdə orada 25 yaşayış binasının inşası nəzərdə tutulur - üç, dörd və beşmərtəbəli yaşayış binaları ki, vətəndaşlar artıq Şuşaya qayıtmağa başlasınlar.

Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik.

Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq.

İşğal dövründə bir çoxlarımız - həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də o cümlədən belə fikirdə idim.

*Ardı 6-cı səh.*

# Ulu Öndərin ucaltdığı, vandalların uçurtduğu Vaqifin məqbərəsi əvvəlki əzəmətinə qaytarıldı

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər














*Əvvəli 5-ci səh.*

Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq.

Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik.

Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

* * *

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı **Anar RZAYEV** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli Mehriban xanım.

Hörmətli tədbir iştirakçıları.

Unudulmaz Ulu Öndərin ucaltdığı və vandalların uçurduğu bu Vaqif məqbərəsi bu gün əvvəlki əzəməti ilə dirçəlib. Buna, Vaqif Poeziya Günlərinin bərpasına, cənab Prezident və Mehriban xanım, şəxsən bu tədbirdə iştirak etdiyinizə görə mən bütün Azərbaycan yazıçıları adından Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Mən ilk dəfə Şuşaya 1952-ci ildə gəlmişəm. O zaman mənim 14 yaşım var idi. Şəhərdə bircə abidə var idi - Sovet İttifaqı Qəhrəmanı Nelson Stepanyanın abidəsi. İndi bədnam adı tarixdə qalmış bu vilayətin erməni başçıları bu qədim Azərbaycan şəhərini erməni şəhərinə çevirmək istəyirdilər. Burada Azərbaycan abidələri yox idi. Qədimdən var idi, amma yenilər yox idi. Ulu Öndərin vaxtında burada muzeylər açıldı - Üzeyir Hacıbəylinin, Bülbülün muzeyləri, Natəvanın, Üzeyir bəyin, Bülbülün heykəlləri qoyuldu. Nəhayət, bu əzəmətli məqbərənin əsası qoyuldu və bu məqbərə açıldı. 1982-ci il yanvarın 14-də həmin o tədbirdə mən də iştirak edirdim.

Vaqif Azərbaycan poeziyasında nadir yeri olan şairdir. O, bizim xalq şeirini, qoşmaları, gəraylıları, heca vəznində yazılan şeirləri əruz vəznində yazılan dram ədəbiyyatı ilə birləşdirən, vəhdətdə təqdim edən, Azərbaycan ədəbiyyatında yeni bir səhifə açan şair idi. Onun dostu Vidadi bədbin şeirlər yazırdısa, bədbinliyi təbliğ edirdisə, Vaqif "Toy-bayramdır bu dünyanın əzabı" deyirdi. Amma keşməkeşli həyatının axırıncı illərində, faciəvi illərində o da "Mən cahan mülkündə, mütləq, doğru halət görmədim, hər nə gördüm əyri gördüm, özgə babət görmədim" deyirdi.

Bu gün mənim ürəyim doludur, çox şey deyə bilərəm, amma dedilər ki, qısa danışmaq lazımdır, ona görə də mən qısa danışacağam. Mən 2010-cu ildə bir mərasimdə çıxış edəndə, - cənab Prezident də iştirak edirdi orada, - dedim ki, mənim 72 yaşım var, amma söz verirəm ki, Sizinlə bir yerdə Şuşaya gedəcəyik və bu, baş verdi. Mən Allaha təşəkkür edirəm, taleyimə minnətdaram və Sizə minnətdaram. Sizə minnətdaram ki, o sözü desəm də, bir də Şuşanı görəcəyimə inanmırdım, amma bu gün mən buradayamsa, Sizə minnətdaram, bizim müzəffər Ordumuza minnətdaram. Siz bu Qələbəni Ordu ilə bir yerdə qazandınız. Amma diplomatik qələbəni, təbliğat qələbəsini Siz təkbaşına qazandınız. Çünki Sizin 4 dildə onlarla çıxışlarınız yeni Azərbaycanı tanıtdı, Azərbaycan həqiqətlərini çatdırdı. Bu da çox böyük bir hadisə idi. Siz bizə, Azərbaycan xalqına onun milli qürurunu qaytardınız. Bizim hamının qarşısında alnımız açıq, başımız dikdir ki, öz torpaqlarımızı qaytardıq. Bu torpaqlar bizə əzizdir. Amma indi şəhidlərin, qazilərin qanı, şəhid ailələrinin göz yaşları, Mehriban xanımın şəhid ailələri ilə görüşlərində axıtdığı göz yaşları ilə suvarılmış bu torpaqlar bizə ikiqat əzizdir, ikiqat doğmadır.

Şuşa Azərbaycandır! Qarabağ Azərbaycandır! Azərbaycan əbədidir! Biz buraya Zəfər yolu ilə gəldik. Bu yolun əvvəli var, amma sonu yoxdur. Bu yol uzandıqca uzanacaq. Bu Zəfər yolu Azərbaycanın hərbi gücünün yoludur, siyasi gücünün yoludur, iqtisadi gücünün yoludur və möhtəşəm Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyatının Zəfər yoludur!

Təşəkkür edirəm.

* * *

Xalq şairi **Nəriman HƏSƏNZADƏ** çıxış edərək dedi:

- Cənab Prezident.

Hörmətli Mehriban xanım.

Bir dəfə mən demişdim ki, cənab Prezident Siz mənim gözümün qabağında böyümüsünüz. Özünüz də dediniz, Siz burada idiniz, 20 yaşınız var idi, cənab Prezident. İndi burada cismani olaraq bircə Heydər Əliyev yoxdur, bir də Zərifə xanım yoxdur. Hamısı buradadır. Abidə də buradadır. Hamımız buradayıq. Özü də Siz gətirmisiniz. "Qarabağ Azərbaycandır, Qarabağnaməm İlhamdır". Siz bizim ilham mənbəyimizsiniz.

*Cənab Ali Baş Komandan, halaldı Sizə,*
*Millət, Vətən qarşısında oğul haqqınız.*
*44 günü Siz yazdınız tariximizə,*
*Günəş kimi dünyaya da doğacaqsınız.*

*"Xarıbülbül" festivalı bir möcüzə idi,*
*Yerlər, göylər ovsunlanıb dedim Şuşada.*
*Burada dağlar hamilə idi, dünya təzə idi,*
*Paytaxt Şuşa doğulurdu qədim Şuşada.*

*"Əziz Şuşa, sən azadsan", bu, öz səsindi,*
*Vurğusu da, nidası da yadda qalırdı.*
*Festivalda işğalçının məhkəməsiydi,*
*Dağlar hakim kürsüsündə mərd dayanırdı.*

*Mən Şuşada kimi gördüm, qürurlu gördüm,*
*Can da dedim Tanrı duası ilə.*
*Üzeyiri, Natəvanı, Bülbülü gördüm,*
*Sinəsində namərdlərin güllə yarası.*

*Yadımdadır, Ulu Öndər Şuşa deyib nitq söyləyirdi.*
*Vətən, ana həsrətidir Şuşa həsrəti.*
*Xoşbəxtəm ki, İlham özü belə deyirdi,*
*Mən yerinə yetirmişəm bu vəsiyyəti.*

*Cənab Ali Baş Komandan, halaldı Sizə,*
*Vətən, millət qarşısında oğul haqqınız.*
*44 günü Siz yazdınız tariximizə,*
*Günəş kimi dünyaya da doğacaqsınız.*

Cənab Prezident, mən onda olduğu kimi bir sirri də deyəcəyəm. Gedib evdə deyəcəyəm ki, lap mənim yanımda oturmuşdular, Prezident də danışanda mənə baxırdı. Siz bizi müalicə edirsiniz, dirildirsiniz, həyat bağışlayırsınız. Mən şadam, çox şadam, Allah Sizin başınızı uca eləsin. Allah Sizə dəyməsin. Bax, burada hamı İlham deyir. Yolda söhbət edirdik, Nizami Cəfərova deyirdim ki, ay Nizami, Heydər Əliyev nəinki tədbirlər keçirirdi, nəinki abidələr ucaldırdı. Dədə Qorquddan üzü bəri həm də ədəbiyyat yaradıcısı idi Heydər Əliyev. Ədəbiyyatımızı yaradırdı.

Cənab Prezident, Siz yanımızdasınız, biz həmişə Sizin yanınızdayıq. Başınız uca olsun. Qızım, Sizin də başınız uca olsun. Allah Sizi saxlasın. Çox şadam, 90 yaşımda gəncləşirəm.

* * *

Azərbaycan Yazıçılar Birliyinin katibi, şair-yazıçı **İlqar FƏHMİ** çıxış edərək dedi:

- Mən də deyilən bütün gözəl sözlərə qoşuluram, dövlətimizin başçısına, Mehriban xanıma bizə dəstək olduqlarına görə təşəkkür edirəm. Mən də şeir oxumalıydım, amma Nəriman müəllim elə bir gözəl ab-hava yaratdı ki, Vaqifin bir şeiri düşdü yadıma. Deyir:

*"Məkan tutdisə Vaqif, yox əcəb, bu Şişə dağında,*
*Məqami ləli-gülrəngin miyani-səngi-xaradır".*

Vaqif deyir bu Şuşa dağında məskən tutdusa, burada qeyri-adi heç nə yoxdur. Çünki ən qiymətli, gözəl incilərin, gözəl daşların məqamı hara olur? Dağların, daşların arası olur. Bu gün bizim bu Şuşa şəhərimiz də sanki Vaqiflə bərabər həmin o dağların, daşların qoynunda məkan tutan Azərbaycanın ən qiymətli, ən gözəl bir incisidir və bu incini bizə qaytardığına görə həm Ali Baş Komandanımıza, həm müzəffər Ordumuza bütün yazarlar adından təşəkkür edirəm və bu şeiri oxumaq istəyirəm.

*Bir Şuşa var, 30 ildir xəyallarda dolaşdı,*
*Bir Şuşa var, bu gün gəlib varlığına qovuşdu.*
*Bir Şuşa var, hər ağacı, hər daşı da tarixdi,*
*Bir Şuşa var, sevinci də, göz yaşı da tarixdi.*

*O Şuşa ki, illər boyu ayrı qaldı anasından,*
*Xarıbülbül qərib düşdü doğma, isti yuvasından.*
*O Şuşa ki, illər boyu məhbus idi, əsir idi,*
*Başı üstə qara duman, ayağında zəncir idi.*

*Nəhayət ki, cuşa gəldi igidləri, ərənləri,*
*Son bir dəli həmlə ilə titrətdilər göyü, yeri.*
*Dağı, daşı silkələdi mərmi səsi, atəş səsi,*
*Namərd düşmən bu torpaqda axır verdi son nəfəsi.*

*Bu gün artıq "zəfər" sözü Şuşa adı ilə qoşadır.*
*İndi hər gün bir qələbə, indi hər yer Şuşadır.*

Çox sağ olun.

* * *

Xalq yazıçısı **Elçin ƏFƏNDİYEV** çıxış edərək dedi:

- Çox hörmətli cənab Prezident. Çox hörmətli Mehriban xanım. Bu, mənim azad Şuşaya ilk səfərimdir və bunu mən öz şəxsi həyatımda tarixi bir hadisə hesab edirəm. Buradakı bu qısa çıxışın öz arxivimdə də qalmasından ötrü onu yazmışam.

Möhtərəm cənab Prezident. Çox hörmətli Mehriban xanım.

Mən bu qısa çıxışımı etirafla başlamaq istəyirəm. Mən bilirdim ki, Şuşa haçansa mütləq azad olunacaq. Çünki başqa cür mümkün deyildi. Ancaq mən özümün həmin gözəl günü görəcəyimə inanmırdım. Nə üçün inanmırdım? Çünki dünyanı ikili siyasi standartlar idarə edir və Siz, çox hörmətli cənab Prezident, bu güclü və qolu zorlu ikili standartlar dünyasında ortaya son dərəcə cəsarətli və cəsarətli olduğu qədər də qətiyyətli, prinsipial iradə qoydunuz. Qəsbkar Şuşadan qovuldu və Şuşa azad oldu. Ancaq yalnız qəsbkar deyil, bu ikili standartlar da məğlub oldu.

Mən tam əminəm, Şuşa bundan sonra daha da gözəlləşəcək, inkişaf edəcək, Şuşa daha artıq eşqlə böyük sənətkarlar, böyük vətəndaşlar yetişdirəcək. Cənab Prezident, Azərbaycanın gələcək tarix kitablarında, salnamələrdə Sizin adınız həmişə azad Şuşa ilə, azad Qarabağ ilə yanaşı yazılacaq.

Əziz dostlar, mənim təsəvvürümdə Şuşa canlı bir orqanizmdir. Biz 30 il Şuşa ağrısı ilə yaşadıq. Ancaq bu 30 ildə Şuşanın özü də həsrət və ağrı içərisində idi. Bu canlı orqanizm doğma xalqının yolunu gözləyirdi. Nəhayət ki, Şuşa bu həsrət əsarətindən, bu ağrıdan xilas oldu. 44 günlük azadlıq savaşında Ali Baş Komandan da, generallar da, zabitlər də sıravi Azərbaycan əsgəri idilər. Ali Baş Komandan həm də bu 44 gündə Azərbaycan xalqının ədalətin və prinsipiallığın tribunu idi. Bu tribunun səsi dünyaya da yayılırdı, hər bir azərbaycanlının ürəyinə də yayılırdı. Bu gün bizim hamımız, bütün Azərbaycan xalqının sevinci, fərəh hissi və qüruru, eyni zamanda, Şuşanın özünün də sevincidir, Şuşanın da qürurudur.

Əziz dostlar, mən 40 il bundan əvvəl də burada keçirilən bu unudulmaz Vaqif poeziya bayramının iştirakçısı olmuşam. Bu gün mənim içimdəki Zəfər sevinci, fərəh və qürur hissi ilə bərabər, güclü bir təəssüf də var. Mən olduqca çox təəssüf edirəm ki, Ulu Öndər Heydər Əliyev bu günü görmədi, bütün varlığı ilə Şuşa sevincini yaşamadı. Ürəyi Şuşa ağrısı ilə sızlayan bir çox yazıçı və şairlər də, bir çox qarabağlı insanlar, o cümlədən İlyas Əfəndiyev də bu sevinci yaşaya bilmədilər. Ancaq mən sözümü ikinci bir etirafla bitirmək istəyirəm. 44 günlük Zəfər real sevinci, real fərəhi, real qüruru ilə bərabər, mənim içimdə mistik bir reallıq da yaradıb. Mən inanıram, qətiyyən şübhə etmirəm ki, Ulu Öndər də, bu gün burada yeri görünən o yazıçı və şairlər də elə bu dəm yuxarıdan bizə baxırlar və hər şeyi görürlər. Şuşa sevinci, Qarabağ sevinci o ali məqamda onlarla bir yerdədir. Qarabağ Azərbaycandır!

Əziz dostlar, bu sözləri oxuya-oxuya bir söz də yadıma düşdü və onu demədən düşmək istəmirəm: "Nə oldu Paşinyan?"

***Ardı 7-ci səh.***

# Ulu Öndərin ucaltdığı, vandalların uçurtduğu Vaqifin məqbərəsi əvvəlki əzəmətinə qaytarıldı

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər














*Əvvəli 6-cı səh.*

* * *

Azərbaycan Yazıçılar Birliyinin üzvü şairə **Günel ŞAMİLQIZI** "Müjdə" şeirini oxudu.

*Düz 44 gün xəbər hazırladıq, sənin atdığın hər addımdan,*
*Ekranlara dikilən gözlərə sevinc payladıq, kənd-kənd, siyahı-siyahı.*
*Düz 44 gün çəkdiyin hər tətik ümid verdi bizə,*
*Düz 44 gün yumruğun hər havaya qalxanda bir az da dikəldi belimiz.*

*İndi biz də görüşünə gəlmişik, qardaş, kiçik bir müjdə kimi,*
*Cisminin uyuduğu yox, ruhunun qovuşduğu ucalığı ziyarətə gəlmişik.*
*Sinəmizə çəkilən dağdan yol alıb,*
*Cırmaq-cırmaq qalxdığın dağları görməyə gəlmişik, qardaş.*

Bizim üçün onda asan idi yazmaq "Düşmənin xeyli sayda canlı qüvvəsi məhv edildi".

*Sənin üçün barıt, qan son nəfəs qoxuyurdu,*
*Azad torpaqlarda ciyərinə çəkdiyin vətən havası.*

*Bizim üçün onda asan idi yazmaq "Xudafərində bayrağımız dalğalanır",*
*Sənin əllərin əsirdi burada döyüş yoldaşının üzünü bayraqla örtəndə.*
*Bu xəbərin yuxusu qan rəngində idi, qan qovuşuqdu, qardaş,*
*Bu xəbərin dünəninə qərənfil səpmişdik, sabahında xarıbülbül pöhrələnəcək.*
*Dünya durduqca köhnəlməyəcək sevinci,*
*Dünya durduqca bu xalq üçün bu xəbər hər zaman yeni olacaq, diri olacaq.*
*Sən yaralarımıza pıçıldamışdın, biz gələcəyi müjdələyirik,*
*Bir də, bir də, bir də "Şuşa işğaldan azad olundu".*

* * *

Azərbaycan Yazıçılar Birliyinin üzvü şair **Şəhriyar Del GERANİ** şəhidlərə və Şuşaya həsr etdiyi şeirini oxudu:

*Əlimi qoy ürəyinin üstünə,*
*O uzağın bir adı da Vətəndir.*
*Atasının qəbrinə məktub yazan,*
*O uşağın bir adı da Vətəndir.*

*Ömür elə başdan-başa yarışdı,*
*Oğulların səngər-səngər vuruşdu.*
*Bu torpağa qəhrəmanlar qarışdı,*
*Qarışığın bir adı da Vətəndir.*

*Yel qayadan nə aparar aparsın,*
*Bu fanidən əbədiyyət apar sən.*
*Cənnətə də bir parça od aparsan,*
*Bu ocağın bir adı da Vətəndir.*

*Vətən adlı eşqin özü Şuşadır,*
*Şeir üzlüm nağılların yaşıdı.*
*Əlini qoy ürəyinin üstünə,*
*Daha adın azadlıqla qoşadır.*
*Bu gün, sabah, əbədi!*

* * *

Çıxışlardan sonra Vaqif Poeziya Günlərinin tarixini əks etdirən videoçarx nümayiş olundu.

Sonra gənc musiqiçilər "Qarabağ şikəstəsi"ni ifa etdilər.

* * *

Daha sonra tədbirin iştirakçıları və şuşalılarla xatirə şəkilləri çəkdirildi.

* * *

**Qadın:** Xoş gördük.

**Prezident İlham ƏLİYEV:** Mən sizi dəvət etmişəm.

**Qadın:** Allah Sizə cansağlığı versin.

**Qadınlar:** Çox təşəkkür edirik. Allah Sizdən razı olsun. Allah Sizə cansağlığı versin. Allah Sizi qorusun. Biz öz Prezidentimizlə fəxr edirik. Mehriban xanıma təşəkkür edirik. Görülən bütün bu işlərə görə Sizə təşəkkür edirik. Sizin uzaqgörən siyasətinizin nəticəsində biz bu gün buradayıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, qayıtmışıq.

**Qadın:** Təşəkkür edirik. Çox fəxr, qürur hissi ilə gəlmişik.

**Prezident İlham ƏLİYEV:** Əbədi yaşayacağıq.

**İştirakçılar:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Tezliklə Şuşaya qayıdacaqsınız.

**İştirakçılar:** Sağ olun, var olun, cənab Prezident.

**Qadın:** Biz mədəniyyət işçiləriyik, Mərkəzi Kitabxana Sisteminin direktoruyam, böyük bir qadın kollektivində işləyirik. Onların hamısının salamı var. Bizim mədəniyyət müəssisələri Sizin sayənizdə Bakıda köçkünlüyün nə olduğunu bilmədi.

**Kişi:** Otuz il o müəssisələri Bakıda yaşatdıq, əmanət kimi qaytardıq. Cənab Prezident, Siz Azərbaycanın şöhrətinin sərhədlərini genişləndirdiniz. Sizə eşq olsun!

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Kişi:** Mən Şuşadan yazıram. Bu, böyük bir qəhrəmanlıqdır. Həm ordunun, həm də şəxsən Sizin qəhrəmanlığınızdır.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Hələ tədbirlər bu gün, sabah davam edəcək.

**Kişi:** *Xəzəllərə yarpaq verməz,*
*Haqsızlara haqq verməz.*
*Yağılara torpaq verməz,*
*Azərbaycan Prezidenti!*

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Mən fikirləşirəm ki, gələn il Poeziya günlərini beynəlxalq tədbir kimi keçirək.

**Yazıçılar Birliyinin sədri ANAR:** İstəyirik ki, oktyabr ayında bizim qurultayı burada keçirək.

**Prezident İlham ƏLİYEV:** Bəli, keçirin.

**ANAR:** Xaricdən də qonaqlar olacaq.

**Prezident İlham ƏLİYEV:** Yaxşı olar. Yer də var burada keçirmək üçün.

**ANAR:** Çox yaxşı, çox sağ olun.

**Qadın:** Təşəkkür edirik, cənab Prezident. Bu möhtəşəm duyğuları bizə yaşatdınız. Hələ də inana bilmirik, əfsanədir hamımız üçün, cənab Prezident.

**Xalq şairi Vahid ƏZİZ:** Cənab Prezident, mən Sizin dediyiniz tədbirdə iştirak edirdim. Onda Mərkəzi Komitədə idim, burada dayanmışdım. Siz deyəndə ki, ata vəsiyyətinə əməl etdim, mən kövrəldim. Ona bir şeir də yazmışam, çap etdirəcəyəm.

**ANAR:** Üzeyir Musiqi günlərində mən də gəlmişdim, Ulu Öndərlə.

**Prezident İlham ƏLİYEV:** Üzeyir Hacıbəylinin abidəsini də dağıtmışdılar. Heç yeri də qalmamışdı. Dünən onun açılışını etdik, gedib baxarsınız. Vaqifin büstünün yerində isə balaca daxma tipli bir dükan açmışdılar.

**AzTV-nin əməkdaşı:** İlk açılışda mən də iştirak etmişəm, Azərbaycan Televiziyasının nümayəndəsi kimi. Reportajı mən hazırlamışam.

**Prezident İlham ƏLİYEV:** O vaxt iştirak edənləri mən dəvət etmişəm.

**AzTV-nin əməkdaşı:** Bəli, biz də elə ona görə təşəkkür edirik.

**Kişi:** Məni də dəvət etmişdilər. Orada bir bənd şeir oxudum.

**Prezident İlham ƏLİYEV:** Qışda, yoxsa yayda.

**Kişi:** Həm qışda, həm də yayda. Poeziya günlərinin açılışında da Ulu Öndərimizdən xahiş etdim. Çox sağ olun. Allah Sizi qorusun, cənab Prezident.

**İştirakçılar:** Sağ olun, cənab Prezident. Çox minnətdarıq.

**Prezident İlham ƏLİYEV:** Salam. Necəsiniz? Qazax eli necədir?

**Kişi:** Heydər Əliyev Fondunun dəvətini alan kimi Qazaxdan qaça-qaça gəlmişəm və bir şeir deyəcəyəm:

*Kişi kişiliyi yaşadar canda,*
*Tarixdə kişilər qəhrəman olur.*
*Ocağın başında kişi duranda,*
*Torpağı qorumaq çox asan olur.*

Yaşayın, var olun. Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Əhməd müəllim də iştirak edir. O vaxt sizi xüsusilə dəvət etmişdim. Yadınızdadır?

**Əhməd ƏHMƏDZADƏ:** Bəli, qış idi. Qar plitə-plitə tökürdü.

**Gənc qız:** Cənab Prezident, biz də gənclərin adından Sizə təşəkkür edirik. Gənc yazarların adından. Mən Qarabağın işğalı ilə yaşıd idim. Amma indi sevinirəm ki, artıq o işğaldan böyüyəm. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox gözəl, çox sağ olun.

**İştirakçılar:** Çox sağ olun. Çox minnətdarıq.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şuşada təşkil edilən sərgilərə baxıblar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" və "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgiləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə Şuşa Rəsm Qalereyasında "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" adlı sərgi ilə tanış oldular.



Qeyd edək ki, Qarabağ Azərbaycan incəsənətinin və mədəniyyətinin mərkəzi kimi qədim tarixə sahibdir. İşğal dövründə talan edilən muzeylərdə Azərbaycana məxsus qiymətli tarix və mədəniyyət nümunələri, dünyada məşhur Azərbaycan xalçaları və Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, həmçinin digər dəyərli eksponatlar olub. Məhv edilən həmin xəzinələr təkcə Azərbaycanın yox, həm də bütün dünya mədəniyyətinin nümunələri idi.

Sərgidə nümayiş olunan rəsm və heykəltəraşlıq nümunələri ziyarətçiləri sevincli və kədərli, real və fantastik, açıq və gizli, rəngarəng və monoxrom dünyaya səyahətə aparır. Burada nümayiş etdirilən əsərlərdə əsas ilham mənbəyi Qarabağdır. Azərbaycanın tarixi diyarı olan Qarabağ uzun illər ərzində özünəməxsus atmosferi ilə fərqli nəsillərdən və cərəyanlardan olan rəssamların və heykəltəraşların dünyagörüşünə böyük təsir edib.



Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən sərgidə Böyükağa Mirzəzadə, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Nadir Abdurrəhmanov, Mikayıl Abdullayev, Ucal Haqverdiyev, Müseyib Əmirov və Azərbaycanın digər görkəmli rəssamlarının əsərləri yer alıb. Sərgidə Qarabağın mənzərələri, ədibləri, xalçası, atı, muğamı, Vətən müharibəsində qələbə mövzularına geniş yer verilib. Altmışdan çox əsərin nümayiş olunduğu sərgidə Xalq rəssamı Altay Hacıyevin "Məclisi-üns", Xalq rəssamı Səttar Bəhlulzadənin "Yuxarı Daşaltı", Əməkdar rəssam İnna Kostinanın "Qarabağın zənginliyi", Leyla Əliyevanın "Xarıbülbül" əsərləri, Faiq Hacıyevin "Qarabağ atı", Orxan Nəbizadənin "Qarabağ gözəli" kimi heykəltəraşlıq nümunələri və digər əsərlər nümayiş olunur.

* * *

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən bərpa və təmir olunaraq yaradılan Şuşadakı Xalçaçılıq Qalereyasında "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgisi ilə tanış olublar. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan Milli Xalça Muzeyinin təqdim etdiyi sərgidə xovlu və xovsuz xalçalar, xalça məmulatları, milli tikmə və geyim dəstləri, bədii metal nümunələri nümayiş olunur. Sərgidə həmçinin Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasına daxil olan xalça nümunələri də yer alıb.

Qeyd edək ki, yenidən öz doğma diyarında sərgilənən bu eksponatların əksəriyyəti Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialından Bakıya gətirilib. Sərgidə əsrlərboyu çox yüksək dəyərləndirilən, xarici muzey və şəxsi kolleksiyaların nadir inciləri sırasına daxil olan Qarabağ xalçalarının müxtəlif bölgələrə aid nümunələrini görmək mümkündür. Buraya maldarlıqla məşğul olan əhalinin həyat tərzini əks etdirən damğa naxışlı, həm də şəhər mədəniyyətini özündə ehtiva edən, peşəkar emalatxanalarda toxunan nəbati naxışlı və süjetli xalçalar - "Vərni", "Zili", "Çələbi", "Ləmpə", "Malıbəyli", "Qasımuşağı", "Əyan məclisi" və digərləri aiddir. İri ölçüsü, mükəmməl kompozisiya quruluşu və əlvan koloriti ilə "Ləmpə" dəst xalı-gəbəsi xüsusi maraq doğuran eksponatlardandır. Beləliklə, "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgisi qədim torpağın ruhunu, əsrlərlə burada yaşayıb-yaradan insanların həyat və məişətini, estetik zövqünü, sənətkarların bədii dünyagörüşünü duymağa, həmin tarixi dövrlərə səyahət etməyə imkan yaradır.



* * *

Heydər Əliyev Fondu tərəfindən Vaqif Poeziya Günləri çərçivəsində Şuşada "Yaddaş. Fotoqrafik tarix" sərgisi də təşkil edilib. Fotosərgi Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, gözəl təbiətini, ənənələrini təcəssüm etdirir. Ermənistan vaxtilə işğal altında saxladığı ərazilərdə mədəni irsimizə, tarixi-memarlıq nümunələrimizə qarşı vandalizm həyata keçirib, düşmən tərəfindən tarixi-mədəni obyektlər, dini ocaqlar məhv edilərək bir sıra rayon və şəhərlər yerləyeksan olunub.

Ziyarətçilərə həmçinin işğaldan azad olunmuş rayon və şəhərlərdə ermənilərin törətdiyi vəhşiliklərə, dağıntılara dair fotolar da təqdim edilir. Sərgidə Vətən müharibəsi zamanı Ermənistan tərəfindən mülki əhaliyə qarşı törədilən cinayətləri əks etdirən fotolar da nümayiş olunur.







## Qırğız Respublikasının Prezidenti zati-aliləri cənab Sadır Japarova

Hörmətli Sadır Nurqojoeviç!

Qardaş Qırğız Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Ortaq tarixi köklərə və milli-mənəvi dəyərlərə bağlı olan dostluq əlaqələrimizin, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın bugünkü səviyyəsi məmnunluq doğurur.

Əminəm ki, qardaş xalqlarımızın iradəsindən qaynaqlanan dövlətlərarası münasibətlərimiz bundan sonra da qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edərək birgə fəaliyyətimiz üçün möhkəm zəmin olacaqdır.

Belə bir əlamətdar gündə Sizi bir daha ürəkdən təbrik edir, qardaş Qırğız Respublikasına daim firavanlıq və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2021-ci il*

## Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha

Əlahəzrət!

Malayziyanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan-Malayziya əlaqələrinin hazırkı səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dövlətlərarası münasibətlərimizin daim inkişafı, ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, beynəlxalq təşkilatlar, xüsusən də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Malayziyaya daim firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2021-ci il*

## Müdafiə naziri xidməti müşavirə keçirib



Avqustun 30-da müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəyə nazir müavinləri, qoşun növlərinin komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmələrin komandirləri, o cümlədən digər məsul zabitlər də videobağlantı vasitəsilə cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdıran müdafiə naziri bildirib ki, Azərbaycan Ordusunda aparılan islahatlar bundan sonra da davam etdiriləcək.

Müdafiə naziri Türkiyənin milli müdafiə naziri və baş qərargah rəisini, o cümlədən qəhrəman türk əsgərini 30 avqust - Türkiyənin Zəfər Bayramı və Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib.

Ermənistan-Azərbaycan dövlət sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikasının ərazilərində vəziyyəti təhlil edən müdafiə naziri qarşı tərəfin təxribat fəaliyyətinə dərhal adekvat cavabın verilməsi, qoşunların döyüş qabiliyyətinin və şəxsi heyətin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin praktiki məşq etdirilməsi, döyüş planlarının dəqiqləşdirilməsi, həmçinin maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı tapşırıqlar verib.

Azərbaycan Ordusunda planlaşdırılan tədbirlərə toxunan general-polkovnik Z.Həsənov azad edilmiş ərazilərdəki bölmələrdə qoşun xidmətinin təşkili, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, hərbi infrastrukturun yaradılması, dağ yollarının çəkilməsi və onların daim işlək vəziyyətdə saxlanılması, bölmələrin qışa hazırlığının təmin edilməsi ilə bağlı müvafiq göstərişlər verib. Nazir nizam-intizam və təhlükəsizlik, o cümlədən yanğın təhlükəsizliyi qaydalarına riayət olunması, eləcə də hərbi qulluqçuların tibbi təminatının daha da yaxşılaşdırılmasına xüsusi diqqət yetirilməsinin vacibliyini bildirib.

## Fövqəladə hallar naziri Qəbələ rayonunda yanğının baş verdiyi ərazidə olub

Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Qəbələ rayonunun Solquca kəndi yaxınlığında yanğının baş verdiyi mürəkkəb relyefli dağlıq ərazidə olub.



Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir helikopterlə əraziyə baxış keçirib, yanğının qarşısının alınması üçün görülən işlərlə tanış olub. Yanğının söndürülməsi istiqamətində görülən tədbirlər barədə K.Heydərova məlumat verilib.

Nazir daha sonra rayonun Abrıx kəndi yaxınlığında mürəkkəb relyefli dağlıq ərazidə də yanğının söndürülməsi işləri ilə tanış olub. K.Heydərov yanğının genişlənməsinin qarşısının alınması və söndürülməsi ilə əlaqədar müvafiq tapşırıqlar verib.

FHN-in qüvvələri həmin ərazidə yanğınla mübarizə tədbirlərini davam etdirirlər.






# Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır






**Klassik irsimiz**

**XVIII əsr Azərbaycan şairi Molla Pənah Vaqifin bədii obrazına Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" əsərində, Səməd Vurğunun "Vaqif" pyesində, Yusif Səmədoğlunun adı çəkilməsə də, haqqında bəhs olunan şairin Vaqifin obrazının olmasına şübhə etmədiyimiz "Qətl günü", Aqil Abbasın "Batmanqılınc", Elçin Hüseynbəylinin "Yenə iki od arasında" romanlarında rast gəlinir. Vaqifin bədii obrazının yaradılmasının birinci səbəbi böyük şair, ictimai xadim Molla Pənaha hörmət və ehtiramdan doğurdusa, ikinci səbəb Çəmənzəminlidə XVIII əsr Azərbaycanının çətin və mürəkkəb ictimai-siyasi vəziyyətini, xanlıqlar arasındakı çəkişmələri göstərmək, Vurğunda taleyi taleyinə çox bənzəyən sələfinin simasında özünün və çağdaşlarının durumunu, öz dövrünün yaşanılan problemlərini əks etdirmək, Yusif Səmədoğluda isə zamanlararası əlaqəni göstərməklə dəyişən, amma əslində hər dəfə təkrarlanan tarixin acı həqiqətlərini bəyan etmək idi.**



# Azərbaycan ədəbiyyatında Molla Pənah Vaqifin bədii obrazı

Yusif Vəzir Çəmənzəminli "İki od arasında" əsərini 1936-1937-ci illərdə cəmi dörd ay ərzində yazmışdır. Əsər ötən əsrin 50-ci illərində Əkbər Ağayev tərəfindən "Qan içində" adıyla xeyli ixtisarla nəşr edilmişdir. Romanın adının dəyişdirilməsinə səbəb professor Tofiq Hüseynoğlunun da dediyi kimi, iki odun - biri İrandırsa, digərinin Rusiya olduğunun asanlıqla anlaşılması idi. Əsərdə "iki od arasında qalmışıq" ifadəsi də məhz Vaqifin dilindən verilir. Səməd Vurğunun "Vaqif" əsərində isə eyni çıxılmaz vəziyyət İbrahim xanın dilindən eşidilir:

*Bir yandan Türkiyə, bir yandan İran,*
*Ordan da Rusiya göndərir fərman...*

Xanın məsləhətçisi, sarayda vəzir olan Vaqifin bir missiyası Qarabağ xanlığının timsalında doğma yurdu bu çıxılmaz durumdan xilas etmək üçün düzgün qərar vermək idisə, bir şair kimi, el içindən çıxmış el vəkili kimi həm də xalqı çətin vəziyyətdən usanan xanın qəzəbindən qorumaq idi. Biz "İki od arasında" əsərində Vaqifin dəfələrlə xalqı xanın, saray hökmlülərinin qəzəbindən qurtarmaq üçün müxtəlif yollar axtardığının şahidi oluruq.

Qarabağ xanlığı hər dəfə təhlükə ilə üz-üzə qalanda, məşvərətə ehtiyac yarananda başda İbrahim xan olmaqla bütün saray əyanları Vaqifin üzünə baxır, onun nə deyəcəyini, nə tədbir tökəcəyini gözləyirdilər. Əsərin əvvəlki nəşrlərində ixtisar olunmuş, son variantlarda isə bərpa olunan - Qarabağa yerləşdirilmiş ermənilərin çirkin siyasətini əks etdirən epizodların birində məlum olur ki, Qarabağda sığınacaq tapan erməni məlikləri Yekaterinaya Qarabağ xanından, onlara olunan "zülmlərdən" şikayət məktubu yazırlar. Bunu eşidən Vaqif saray əhlini məşvərətə yığır, uzun məsləhətlərdən sonra saraydakı rəsmi otağına çəkilib Yekaterinaya məktub yazır. Bu, o məktub idi ki, Peterburq sarayının Qarabağa qarşı tərtib etdiyi planı tamamilə dəyişir. Ermənilərin 1783-cü ilin mart ayında Peterburqa çatmış ərizəsinin üstünə knyaz Potyomkin-Tavriçeski "İbrahim xanı taxtdan salıb Qarabağda erməni əyaləti düzəltməli" dərkənarını yazmışdı. Vaqifin yazdığı məktub eyni ilin aprel ayında Peterburqa yetişib Potyomkini əvvəlki qərarından daşındırır, "İbrahim xanın bizə qarşı bəslədiyi sədaqət rus çariçası üçün ən gözəl bir bacdır" deyə Qarabağ hökmdarına sifariş göndərir.

Bunu deməkdə məqsədimiz həm də odur ki, bu gün şairi bəzi tədqiqatçı və siyasətçilər Rusiyaya meyilli olmaqda ittiham edirlər. Əslində Vaqifin bu "meyil və istəyi" Qarabağ xanlığını gözləyən böyük təhlükəni sovuşdurmaq məcburiyyətindən doğurdu.

"İki od arasında" əsərində diqqətçəkən maraqlı bir məqam var. Əsərboyu Vaqifə İbrahim xan, saray əhli, digər həmsöhbətləri axund, ağa, şair, aşıq deyə müraciət edir, onun haqqında məhz Vaqif deyə danışılır. Amma Qazaxdan Qarabağa qonaq gələn Vidadi Vaqiflə söhbətində ona Pənah deyə müraciət edir. Bu fərqli xitab diqqəti cəlb edir və çox keçmir ki, bu xitabın mənası anlaşılır. Belə ki, Vidadi Vaqifə bu dünyanın gözəlliklərinə, səfasına çox da bel bağlamamağı tövsiyə edəndə Vaqif onunla razılaşmayıb, "bu dünyanın əzabını" toy bayram biləndə, Vidadi gülümsəyərək "zöhd və təqva işinə gəlmir. Bir az da qocalarsan, ölüm qorxusu canına çökər, onda məsələnə Vaqif olarsan. Hələ Vaqif deyilsən, fəni dünyaya bel bağlayan Pənah oğlansan" deyir. Hamı üçün Vaqif olan Molla Pənah, Vidadi üçün onda Vaqif olacaqdı ki,

*Mən cahan mülkündə mütləq doğru halət görmədim,*
*Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim.*
*Aşinalar ixtilatında sədaqət görmədim,*
*Biətü iqrarü imanü dəyanət görmədim,*
*Bivəfadan lacərəm təhsili-hacət görmədim.*

*...Baş ağardı, ruzigarım oldu gün-gündən siyah,*
*Etmədim, səd heyf kim, bir mahi ruxsarə nigah,*
*Qədr bilməz həmdəm ilə eylədim ömrü təbah,*
*Vaqifə, ya rəbbəna, öz lütfünü eylə pənah,*
*Səndən özgə kimsədə lütfü inayət görmədim.*

- deyə yazacaqdı.

Molla Pənah Vaqifin yaradıcılığı Səməd Vurğunu hələ uşaq yaşlarından özünə aludə etmişdir. Təsadüfi deyildi ki, Səməd Vurğun Puşkinə həsr etdiyi "Şairin şərəfinə" şeirində yazırdı:

*Axıtdım alnımın inci tərini,*
*Yanmadım ömrümün iki ilinə.*
*Rusiya şeirinin şah əsərini,*
*Çevirdim "Vaqifin şirin dilinə".*

Qeyd edək ki, şeirin IV misrası ilk variantda "çevirdim ilk dəfə türkün dilinə" olmuş, "türk" kəlməsinin işlədilməsinə qadağa qoyulduqdan sonra Səməd Vurğun da bu yasaq ilə barışmış və "türk dili" ifadəsini "Vaqifin şirin dili" ilə əvəz etmişdir.

Səməd Vurğunun Vaqif şeirinə olan münasibəti, Vaqif şeirinin Vurğun poeziyasına olan nüfuz gücü və bu poeziyanın məndəricə və istiqamətini müəyyənləşdirməsi ciddi maraq doğurur. Vaqif şeirinin ümumi poetik ruhu S.Vurğunun da yaradıcılıq əhvali-ruhiyyəsinə hopmuşdur. S.Vurğun Vaqif yaradıcılığına olan bu səmimi münasibətini həm lirikasının ümumi ab-havasında, həm şairin bədii obrazını yaratdığı "Vaqif" pyesində (əvvəllər "Şairin ölümü" şeirini yazsa da, bu, müəllifi tam qane etməmişdir), həm də məqalə və məruzələrində əks etdirmişdir.

Şair qeyd edirdi ki, Vaqif poeziyası Azərbaycan ədəbiyyatının bir əsrlik yolunu müəyyənləşdirmişdir. Onun çox təqlidçisi olmuş, amma ədəbiyyat tariximizdə Vaqifi əvəz edə bilən şair olmamışdır. S.Vurğun "Hər oxuyan Molla Pənah olmaz" - xalq deyiminin də təsadüfən yaranmadığını qeyd edir, Vaqif poeziyasının səciyyəvi xüsusiyyətlərini açır, dövrün ədəbi-mənəvi təkamülündə onun tutduğu mövqeyi çox düzgün müəyyənləşdirirdi. Şair qeyd edirdi ki, Vaqif xalq şeiri ilə yazılı ədəbiyyatı birləşdirib, Azərbaycan poeziyasına bir axıcılıq və sadəlik gətirib.

Səməd Vurğunun Vaqifin bədii obrazını yaratmaq ehtiyacını nə doğururdu? Bunun bir səbəbi şairə olan hörmət və ehtiramdan yaranırdısa, onu həm bir şəxsiyyət, dövlət xadimi, həm də bir şair kimi təbliğ etmək istəyi idisə, ikinci səbəb dövrün möhnətlərindən çəkdiyi əzabları ifadə etmək metodu idi.

"Şair, hökmdarın hüzurundasan!" - Bu sözlər təkcə Vaqifəmi aid idi? Təbii ki, yox! Bu həm də Vurğunun öz oxucusunu agah etmək üsulu idi. O, oxucusunu şairinin hökmdarın hüzurunda olmasından xəbərdar edirdi. Vaqif XVIII əsrdə:

*Alilər xaki məzəllətdə, dənilər mötəbər,*
*Sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər*
*İşlənən işlərdə ehkami ləyaqət görmədim.*

- deyə zəmanəsinə bir etiraz, ədalətsizliyə, nizamsızlığa qarşı üsyan edirdisə (bu, artıq sarayların iç üzünü görmüş, indi azadlıq dünyası axtaran Vaqifin fəryadı idi) iki əsr sonra onun xələfi Vurğun daha kəskinliklə:

*Nifrət! Qan çanağı taclara nifrət!*
*Var olsun azadlıq, bir də məhəbbət!* - deyirdi.

Vaqif obrazının müəllifin özünü ifadə etməsi, şairin baxışlarını və yaşantılarını əks etdirməsi barədə bir çox tədqiqatlarda toxunulmuş və geniş bəhs olunmuşdur. Bununla bağlı onu qeyd etmək istəyirik ki, əsərin elə parçaları var ki, Vaqifin adının yerinə Vurğunun ismi yazılsa, məna uyarlığına heç bir xələl gəlməz. Məsələn,

*Vidadi:*
*Tükəzban! O saray qan ocağıdır,*
*Onun hər vüsalı hicran dağıdır.*
*Bir düşün Vaqifi, daima gülən,*
*Daima şadlanan o böyük hünər*
*Bəzən taleyindən şikayət yazır;*
*Səbəb? Saraylardır...*

*Yaxud yenə Vidadi:*
*Şairdir... qəlbi var, şirin sözü var,*
*Böyük bir ölkənin onda gözü var,*
*O ölsə... dağlar da dil deyib ağlar,*
*Əfv edin, yaxşılıq qalır yadigar.*

Bu nümunələrin sayını daha da artırmaq olar. Göründüyü kimi, sadə, ruha yaxın şeirləri ilə Səməd Vurğunu hələ kiçik yaşlarından özünə aludə edən Vaqif 1938-ci ildə şairi başqa bir aspektdən maraqlandırmışdır. "Vurğun özü də bu zaman yeni bir Qacarla üz-üzə gəlmişdi. Böyük şair təzə Qacarın təqib, hədə və məzəmmətlərindən, xalqa, günahsız adamlara tutduğu divandan darıxır, qəlbində ona qarşı kin və qəzəbi artırdı.

Səməd Vurğun dili ilə deyə bilmədiyini, beynindən keçən qızğın etiraz və kini, yeddibaşlı əjdahanın xalqımıza tutduğu divan haqqında ürək sözlərini bu dramda deməyə çalışmışdır. Böyük Vaqifin düşdüyü çıxılmaz və çətin vəziyyət Səmədin vəziyyətinə çox yaxın idi. Çeşməkli Qacar öz sələfindən daha zülmkar idi".

S.Vurğun tarixi həqiqətlərə öz dövrünün ictimai-siyasi hadisələri fonunda nəzər salmaqla, şair-psixoloq, şair-ideoloq, şair-filosof ampluasından çıxış edərək XVIII əsr Azərbaycanını təsvir etməklə həm də öz çağının yaşanılan problemlərinin bədii şərhini verə bilmişdir. Ona görə də ovaxtkı ədəbi tənqid və ədəbiyyatşünaslıq haqlı olaraq bu əsər haqqında yazırdı: "Vaqif" draması ədəbi bir hadisə olmaqla bərabər, eyni zamanda siyasi bir hadisədir".

"O, (Səməd Vurğun - A.B.) Vaqifin dili ilə şairin, dövlət xadiminin, xalq mənafeyi uğrunda mübarizin necə olması barədə öz fikirlərini verir".

"Bu vaxtadək heç kəs Vaqifin vətənpərvərliyi, xalqın gözəl gələcəyindən xəbər verən arzuları, onun şəxsi və ictimai faciəsi haqqında bizə belə təsirli lövhələr göstərməmişdir". Bu pyesin müəllifinə böyük şöhrət qazandırdığı, ədəbi proses tərəfindən razılıqla qarşılanması, uzun müddət teatr repertuarından düşməməsi, dövrünün ən yüksək mükafatına - Stalin adına dövlət mükafatına layiq görülməsi məlum faktdır. O da məlumdur ki, şair ədəbi tənqid tərəfindən həm də bəzi tarixi hadisələri (məs: İbrahim xanın obrazının həqiqətə uyğun olmayan şəkildə təqdimi) təhrif etməkdə ittiham olunurdu. S.Vurğunun bu obrazı tarixi cəhətdən birtərəfli yaratması tarixi faktları bilməməzlikdən irəli gəlmirdi. Şair bu əsəri yazana qədər Vaqifin həyatı və dövrü haqqında yaradıcılıq axtarışları aparmış, ilkin mənbələrə, arxiv sənədlərinə, bir çox tarixi əsərlərə müraciət etmiş, XVIII əsr Azərbaycanını bütövlükdə - ictimai-siyasi, ədəbi-mədəni, tarixi hadisələr fonunda dərk etməyə çalışmışdır. Mehdixan Vəkilov bu haqda yazır: "Vaqifin taleyi üzərində dramaturq uzun müddət düşünmüşdür. O, XVIII əsr Azərbaycan tarixinə, xüsusən Qarabağ xanlığına dair ədəbiyyatı böyük maraqla oxuyurdu. Səməd Vurğunun "Qarabağnamə"ni tapdırıb ona göndərməyi Heydər Hüseynovdan xahiş etdiyi və 1936-cı ildə Vaqifin dövrünə, həyatına, bütövlükdə Qarabağ xanlığı tarixinə dair Yusif Vəzirlə saatlarla söhbəti yaxşı yadımdadır. Biz belə başa düşürük ki, Səməd Vurğun İbrahim xanın simasında öz dövrünün hökmlülərinin obrazını yaratmaq istəyinə görə tarixi təhrif etməyə məcbur olmuşdur və görünür, bu hökm sahibləri, şeyx və təlxəklər əsərdə öz simalarını tanıdığına görə şairə təqib və təhdidlər də göstərmişlər. Məmməd Rahim şair haqqındakı xatirələrində yazır: "...Moskvaya səfərimizdən bir az əvvəl yuxarıda Səmədə hücum etmişlər. Demişlər ki, Vaqif dindardır. Qarabağda şəbigərdanlığı o, düzəltmişdir. Belə bir şairə sən pyes həsr eləmisən. Vaqifə olan bu amansız münasibət, bu cahilanə qiymət Səmədə çox pis təsir eləmişdi".

Əsərin yazılmasından 70 il keçəndən - o illərin qorxu və xofu tam çəkiləndən sonra çağdaş ədəbyyatşünaslıq pyesin dəyərini belə xarakterizə edir: "Beləliklə də, "Vaqif" mənzum pyesi birinci növbədə həm də xalq mənəviyyatının, ana dilimizin cəmiyyət miqyasında parlaq qələbəsi idi. Bu keyfiyyətlərinə görə də 1930-cu illərin o çox ağır repressiya çağlarında Azərbaycan xalqının milli özünüdərki prosesində iki nəhəng əsər ölçüyəgəlməz dərəcədə böyük rol oynamışdı. Onlardan biri dahi Üzeyir Hacıbəylinin ölməz "Koroğlu" operası, digəri isə böyük şair Səməd Vurğunun kamil sənət əsəri olan "Vaqif" mənzum dramı idi".

Maraq çəkən bir məqama toxunmaq istəyirik. Səməd Vurğunun "İnsan" əsərində ata Şahbaz üzərində çoxdan işlədiyi əsərini qanlı-qadalı müharibənin içində, düşmənin çevrəsində yazmağı davam etdirsə də, tamamlaya bilmir. Ölüm ayağında olan filosof yarımçıq qalmış əsərini əsir saxlandığı zirzəmidə dırnaqları ilə açdığı bir ovuqda gizlədir və "Ya oğlum tamamlar, ya da öz nəvəm" deyə gələcəyə öz mesajını ötürür. Və pyesin sonunda oğul Şahbaz atanın yarımçıq qalmış əsərini tamamlayaraq, "Qalib gələcəkmi cahanda kamal?" sualını cavablayır.

Zənnimcə, Vurğunun da "Vaqif" əsərində yarımçıq qalan bir məqam var. Vaqifin edam səhnəsi. Məlumdur ki, şair pyesin əvvəlki variantında əsəri Vaqifin ölümü ilə bitirmiş, ancaq sonradan bəzi təkid və təkliflərə görə final bir çox tədqiqatçıların da qeyd etdiyi kimi, süni təsir bağışlayan sonluqla tamamlanmışdır. Kim bilir, bəlkə də Yusif Səmədoğlu Kuteitsinin "xəbərdarlıq", P.Rudyakovun "ağrılar", "zamanların əlaqəsi" romanı adlandırdığı "Qətl günü" əsərində məmləkətin iki əsr əvvəlki tarixi keçmişindən bəhs edərkən edam olunan şairlə bağlı epizodla "Vaqif" pyesinin yarımçıq qalmış həmin sonluğunu tamamlamışdır:

"...Neçə gün əqdəm bu qaladan enib hökmdarın yanına gəlmiş və özləri ilə çox vacib məlumatlar gətirmiş iki saray şairinin bəxşiş, daş-qaş əvəzinə istədikləri ölümün vədəsi yetmişdi. Bu gün axşam, gün batanda, hökmdarın hüzurunda və bütün xəlqin gözü qabağında bu məmləkətin böyük şairini edam edib başını həmin o şairlərə verəcəkdilər. Hökmdar buna razılığını çoxdan vermişdi və hələ hökmdar heç bir zaman vədinə xilaf çıxmamışdı.

...Şairi edam yerinə qaldırdılar. O, gözlərini qıyıb əvvəl-əvvəl aşağıda, meydançanın ortasında taxtda əyləşmiş hökmdarı gördü... Sonra şair başını ağır-ağır endirib sərbazlara baxdı: Sağ tərəfdə dayanıb, qorxu içində şairin edamına tamaşa edən öz obalılarını - qocaları, qarıları, cavan oğlan uşaqlarını və nəhayət, ömrübоyu uca qamətlərini və ala gözlərini vəsf elədiyi gəlinləri, qızları görəndə gözündən bir damla da yaş axdı: bu damla da ağ deyildi, bu damla da qırmızı idi. Çünki şairin ürəyi od tutub yandı, şair bildi ki, qara telləri çiyinlərinə tökülüb məlul-məlul dayanmış, göz yaşları qurumuş bu gəlinlərin, bu qızların hər birinin bətnində indi neçə-neçə sərbaz toxumu var. Gözlərinə qırmızı yaş gəldi və şair ürəyində öz obalılarından halallıq istədi".

Müstəqillik dövründə də Vaqifin bədii obrazına müraciət edilmişdir. Elçin Hüseynbəyli səkkizinci Qarabağnamə adlandırdığı "Yenə iki od arasında" romanında şairin obrazını yaratmışdır. Müəllif adından da göründüyü kimi, əslində Yusif Vəzir Çəmənzəminlidən bəhs edən əsərində sanki yazıçının "İki od arasında" romanının yazılma prosesini təsvir etmişdir. Romanda Molla Pənah Vaqif hazırcavab, müdrik obraz kimi verilmişdir. Məsələn, ...Ağaməhəmməd şah onları amiranə səslə dayandırdı.

"- Yox, hələ bir dayanın. Ona bir sualım da var. Mənim ağlar günə qoyduğum o Tiflisdə nə azarın var idi? Bəs bilmirsən ki, kafirlərə boyun əymək kitabımıza və Quranımıza ziddir?

- Bilirəm, axund Pənah təmkinlə cavab verdi.

- Deməli, bilirdin və bilə-bilə gedib onlarla ixtilat yapdın. Bizəmi qarşı?

- Həlbət ki, yox, sahibi ixtiyar.

- Bəs onda niyə, hiyyy!? Niyə görüşürdün?

- Kafirləri yaxşı tanımaq üçün onlarla görüşmək də, ixtilat da gərəklidir, şah...

- Şah!!! Hmmm... Aparın. Bir az da burda qalsa, mənə siyasətdən dərs demək istəyəcək. Onunla sonra danışarıq".

Sonda qeyd edək ki, Molla Pənah Vaqifin obrazı təsvir olunan əsərlərdə şairi bir ictimai xadim, müdrik el adamı, gözəllikdən ilham alan yaradıcı insan kimi görməklə yanaşı, həm də XVIII əsr Qarabağ mühitinin bədii tarixi ilə tanış oluruq. Bir sözlə, bu əsərləri Qarabağ xanlığı, onun təbəddülatlı və keşməkeşli taleyi haqqında bədii salnamə də adlandırmaq olar.

***Aygün BAĞIRLI,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent***

**Vaqif poeziyası**



### *Hər kimin canam kim, bir əhli-ürfan olmaya,*

Hər kimin canam kim, bir əhli-ürfan olmaya,
Şahi-aləm olsa, onda rahəti-can olmaya.

Rəsmi-ülfət bilməyən büt, aşiqin kafər edər,
Ey müsəlmanlar, xoş ol kim, yarı nadan olmaya.

Bir ləbi ləlü lətif əndamü gül-rüxsar üçün,
Qətreyi-əşkin nə lütfü var əgər qan olmaya.

Afəti-badi-fənadən dağıla, bərbad ola,
Ol bina ki, onda bir zülfi pərişan olmaya.

Nə səfa ol gül yanaqdan kim, gözə görünməyə,
Nə ləzzət ol qönçə ləbdən kim ki, xəndan olmaya?

Vaqifa, bir məhliqayi-mehribanə meyl qıl,
Ta kəmali-eşqə ondan zərrə nöqsan olmaya.

### *Vidadidən gələn kağız məni fərxəndəhal etdi,*

Vidadidən gələn kağız məni fərxəndəhal etdi,
Bu halı gördü qəm filhal məndən intiqal etdi.

Uçub könlüm quşu pərvaz qılsa övci-ələyə,
Əcəb yox kim, bu məktubu özünə pərrü bal etdi.

Ziyayi-şəms tək yetdi, məni bədr eylədi, hala
Əgərçi qəddimi devrani-filmazi hilal etdi.

Səvadi namənin, ey dil, məgər zülmati-heyvandır,
Ki, ruhum Xızr tək ondan bəsa kəsbi-kamal etdi.

Xəyal etmişdi Vaqif kim, rəvan bir xoş qəzəl yazsın,
Rəvan olmuşdu qasid kim, bunu ancaq xəyal etdi.

### *Hər gedən gəlmiş, mənim ol qəmküsarım gəlməmiş,*

Hər gedən gəlmiş, mənim ol qəmküsarım gəlməmiş,
Ey gözüm, qan ağla kim, çeşmi xumarım gəlməmiş.

Getmiş idi ixtiyarım biləsincə yarımın,
Çünki yarım gəlməmiş, həm ixtiyarım gəlməmiş.

Mən bu dərd ilə əgər ölsəm, məzarə qoymayın,
Üstümə ol tuti dilli şux nigarım gəlməmiş.

Həsrətindən zəfəranə dönsə ruyim, yox əcəb,
Qoymuş hicranda məni, bir gülüzarım gəlməmiş.

Deməsin, Vaqif, əcəl kim, gəlsə məndən can alır,
Kimdir ona can verən, fərmani-yarım gəlməmiş?

### *Yazıb bir namə göz yaşilə ol dildarə göndərdim,*

Yazıb bir namə göz yaşilə ol dildarə göndərdim,
Səriri-hüsnə, yəni şah olan sərdarə göndərdim.

Könül tiflinə dərs verdim kitabi-hüsnünü, billah,
Səri-kuyində xəlvət etməyə təkrarə göndərdim.

Nə hacət halimi yazmaq ki, qayət də pərişandır,
Onu şərh etməyə yarə dili-sədparə göndərdim.

Sirişki-laləgunun danəsin damanimə yıxdım,
Bunu bir töhfə bildim, gözləri xumarə göndərdim.

Behəmdülla ki, Vaqif həsrətindən öldü qurtuldu,
Uçurdum can quşun, ey gül, sizin gülzarə göndərdim.

### *Çıxıb başmaq seyrinə, edib seyri-çəmən gəldim,*

Çıxıb başmaq seyrinə, edib seyri-çəmən gəldim,
Ayaq üstdən Qazağa bir gedib, gördüm vətən, gəldim.

Qızıl gül açılan günlərdə gülzari-Qarabağa,
Sənin olsun, əzizim, böylə məlumun ki, mən gəldim.

Mən idim abi-yari bu gülüstanın əzəl gündən,
Yetirdim tazəcə güllər gənə mən tazədən gəldim.

Xəyalın mühlik azəri məni az qaldı öldürsün,
Qayıtdım rəhgüzari-qəbrdən, yırtdım kəfən, gəldim.

Ver ağca, al qarabaşı, gedəndə söylə, ey Vaqif,
Sənin üçün gətirdim bir büti-siminbədən, gəldim.

### *"Pəri" qoşması*

Boyun sürahıdır, bədənin büllur,
Gərdənin çəkilmiş minadan, Pəri!
Sən ha bir sonasan, cüda düşübsən
Bir bölük yaşılbaş sonadan, Pəri!

İxtilatın şirin, sözün məzəli,
Şəkər gülüşündən canlar təzəli,
Ellər yaraşığı, ölkə gözəli,
Nə gözəl doğubsan anadan, Pəri!

Üz yanında tökülübdür tel nazik,
Sinə meydan, zülf pərişan, bel nazik,
Ağız nazik, dodaq nazik, dil nazik,
Ağ əllərin əlvan hənadan, Pəri!

Ovçusu olmuşam sən tək maralın,
Xəyalımdan çıxmaz hərgiz xəyalın.
Ənliyi, kirşanı neylər camalın,
Sən elə gözəlsən binadan, Pəri!

Günəş təki hər çıxanda səhərdən,
Alırsan Vağifin əqlini sərdən,
Duaçınam, salma məni nəzərdən,
Əskik olmayasan sənadan, Pəri!

### *Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax!*

Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax!
Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!

Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,
Hökmü adil padişahi-qadirü qəhharə bax!

Sübh söndü, şəb ki, xəlqə qiblə idi bir çıraq,
Gecəki iqbalı gör, gündüzdəki idbarə bax!

Taci-zərdən ta ki ayrıldı dimaği-pürqürur,
Payimal oldu təpiklərdə səri-sərdarə bax!

Mən fəqirə əmr qılmışdı siyasət etməyə,
Saxlayan məzlumu zalimdən o dəm Qəffarə bax!

Qurtaran əndişən ahəngəri-biçarəni,
Şah üçün ol midbəri təbdil olan mismarə bax!

İbrət et Ağa Məhəmməd xandan, ey kəmtər gəda,
Ta həyatın var ikən nə şahə, xunxarə bax!

Baş götür bu əhli-dünyadan ayaq tutduqca qaç,
Nə qıza, nə oğula, nə dustə, nə yarə bax!

Vaqifa, göz yum cahanın baxma xubü ziştinə,
Üz çevir ali-əbayə, Əhmədi-Muxtarə bax!

### *Hayıf ki, yoxdur!*

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur!
Ucu tər cığalı siyah tellərin
Hərdən tamaşası, hayıf ki, yoxdur!

Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür Aranın, cümlə-cahanın,
Belə gözəl yerin, gözəl məkanın
Bir gözəl obası, hayıf ki, yoxdur!

Elə gözəl var bunların içində,
Ələ düşməz hərgiz Çinü-Maçində.
Söyləgən, oynağan, dürüst biçimdə
Bəzəyi, libası, hayıf ki, yoxdur!

Çoxdur ağ bədənli, büllur buxaqlı,
Lalə zənəxdanlı, qönçə dodaqlı.
Amma şirin dilli, açıq qabaqlı,
Könül aşinası, hayıf ki, yoxdur!

Havasından torpağının, yerinin,
Dadızmaz dəhanın, ləbi-şirinin,
Pəri çoxdur, nə fayda heç birinin
Adamlıq ədası, hayıf ki, yoxdur!

Ucu əşrəfili, bulut kimi saç,
Dal gərdəndə hər hörüyü bir qulac,
Kəlağayı əlvan, qəsabə qıyğac,
Altından cunası, hayıf ki, yoxdur!

Zər haşiyə al nimtənə üstündə,
Xallar üz yanında, çənə üstündə,
Buxağın altında, sinə üstündə,
Zülfün burulması, hayıf ki, yoxdur!

Laçın təki başda ala tomağa,
Yaşmağı tutmaya dişə, dodağa,
Cəllad kimi durub qabaq-qabağa
Baxıb can almağı, hayıf ki, yoxdur!

Çünki yorğunuyam mən bu yolların,
Qaydasını billəm hər üsülların,
Gümüş biləklərin, bəyaz qolların,
Sarı kəhrəbası, hayıf ki, yoxdur!

Ayna tutub hərdəm camal görməsi,
Zülfə, zənəxdana sığal verməsi,
Səhər ala gözün siyah sürməsi,
Əlinin hənası, hayıf ki, yoxdur!

Vaqif haqdan dilər lütfü kərəmlər,
Belə yerdə qalan, vallah, vərəmlər.
Yenə yada düşdü bizim sənəmlər.
Getməyin binası, hayıf ki, yoxdur!

# Şəhid mayor Rüfət Əsgərovun doğum günündə xatirəsi anılıb

Vətən müharibəsində qəhrəmanlıqla döyüşərək şəhidlik zirvəsinə yüksələn mayor Rüfət Əsgərovun doğum günündə xatirəsi yad olunub.



Anım mərasimində şəhidin ailəsi, dostları, döyüşçü və hərbçi yoldaşları, o cümlədən Müdafiə Nazirliyinin əməkdaşları, Xətai Rayon İcra Hakimiyyətinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə mərasim iştirakçıları II Fəxri xiyabanda dəfn olunan igidimizin qəbrini ziyarət edib, məzarı üzərinə gül dəstələri qoyublar.

Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində davam edən anım mərasimində şəhid zabitin şərəfli həyat yolundan, onun torpaqlarımızın işğaldan azad olunması uğrunda qəhrəmancasına döyüşməsindən, cəsarət və qorxmazlığından, Vətəninə, torpağına, elinə-obasına bağlılığından danışılıb. Çıxış edənlər Rüfət Əsgərov kimi vətənpərvər oğullarımızın xalqımızın yaddaşında əbədi yaşayacağını və onun kimi igidlərimizin qəhrəmanlığının gənc nəslə örnək olduğunu xüsusi vurğulayıblar.

Sonda şəhidin həyat yoluna dair videoçarx nümayiş olunub və vətənpərvərlik mövzusunda musiqi nömrələri təqdim edilib.

# Ermənistan itkin düşmüş şəxslərin taleyi ilə bağlı səmərəli araşdırma aparmaqla bağlı beynəlxalq öhdəliklərini yerinə yetirmir

Bu gün Beynəlxalq İtkin Düşmüşlər Günüdür. İtkin düşmə, Azərbaycanda təxminən otuz ildir ki, minlərlə insanın qarşılaşdığı problemdir.

Azərbaycanın Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycandan 3890 nəfər (3171 hərbçi, 719 mülki şəxs) hələ də itkin düşmüş hesab olunur. Ermənistan 1990-cı illərin əvvəllərindən etibarən azərbaycanlıların girov götürülməsi, uzun illər girovluqda saxlanılması, onlarla pis rəftar və qətlə yetirilməsi təcrübəsini həyata keçirib. Girov götürülmənin beynəlxalq humanitar hüquqda açıq şəkildə qadağan edilməsinə baxmayaraq, 267 azərbaycanlı mülki şəxs (o cümlədən 29 uşaq, 98 qadın, 112 qoca) Ermənistan tərəfindən girov götürülüb və indiyədək azad edilməyib. Bundan əlavə, 1102 azərbaycanlı (o cümlədən 224 uşaq, 357 qadın, 225 qoca) erməni girovluğundan azad olunub. Ötən il baş vermiş müharibə nəticəsində 7 Azərbaycan hərbçisi hələ də itkindir.

Bu qanunsuz hərəkətlərlə Ermənistan 1949-cu il Cenevrə konvensiyalarının və onların birinci əlavə protokolunun müharibə əsirlərinə və müharibə zamanı mülki şəxslərə münasibətə dair müvafiq müddəalarını ciddi şəkildə pozub. Beynəlxalq humanitar hüququn müvafiq normaları ilə yanaşı, itkin düşmüş şəxslərlə bağlı məsələlər beynəlxalq səviyyədə qorunan insan hüquqları, xüsusən də özbaşına həbsdən qorunma hüququ, bütün məhkəmə zəmanətləri olan ədalətli mühakimə hüququ, işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan edilməsi, məcburi yoxaçıxmanın qadağan edilməsi, azadlıqdan məhrum edilmiş şəxslərin hüquqları və s. kontekstində nəzərdən keçirilir. Azərbaycan əhalisi arasında itkin düşənlərin aqibəti, Ermənistan silahlı qüvvələrinin münaqişə zamanı geniş şəkildə həyata keçirdikləri vəhşilikləri nəzərə alaraq, ciddi narahatlıq doğurur. Digər beynəlxalq humanitar hüquq pozuntuları ilə yanaşı, girov və əsirlərin qanunsuz olaraq həbs edilməsi, onlara işgəncə verilməsi və ləyaqətinin təhqir edilməsi, azərbaycanlılara qarşı sistemli şəkildə həyata keçirilən cəzalandırma və ayrı-seçkilik siyasətinin bir hissəsi olub.

Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası müəyyən edib ki, beynəlxalq humanitar hüquq normalarının əksinə olaraq azərbaycanlı girovlar dözülməz şəraitdə əsirlərlə birlikdə saxlanılıb, həm Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərində, mütəmadi olaraq həm də Ermənistan ərazisində bir həbs yerindən digərinə köçürülüb. 1990-cı illərdə Ermənistan silahlı qüvvələri tərəfindən azərbaycanlı əsir və girov götürülmüş şəxslərin kütləvi şəkildə məhv edilməsi həyata keçirilib. Uşaqlar, qadınlar və qocalar da daxil olmaqla bir çox girovlar qəddarcasına öldürülüb, bəziləri daha sonra işgəncə, dözülməz şərait və xəstəliklər nəticəsində ölüb. Ölənlərin qalıqları Azərbaycana təhvil verilmədiyindən bu şəxslər hələ də itkin düşmüş hesab olunur.

Dövlət Komissiyasının dəfələrlə müraciət etməsinə baxmayaraq, yalnız bir neçə il əvvəl Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən qeydiyyata alınmış və müxtəlif vaxtlarda BQXK nümayəndələri tərəfindən ziyarət edilmiş 6-sı qadın olmaqla 54 azərbaycanlı əsir və girov haqqında məlumat əldə etmək mümkün olub.

25 ildən artıqdır ki, Ermənistan itkin düşmüş şəxslərin taleyi ilə bağlı səmərəli araşdırma aparmaqla bağlı beynəlxalq öhdəliklərini yerinə yetirmir. Bunun əvəzinə, Ermənistan törətdiyi təcavüzə və insanlara verdiyi saysız əzablara görə məsuliyyətini inkar edir, hərbi cinayətkarları və terrorçuları qəhrəmanlaşdırır, nifrət və Azərbaycanafobiyanı təbliğ edir. Azərbaycan bu ağır cinayətləri törədənlərin cinayət məsuliyyətinə cəlb edilməsi və cəzalandırılması üçün məhkəmə işlərinə başlayıb. Cavabdehlik və zərərin ödənilməsi qurbanların hüquq və mənafelərinin təmin edilməsinə xidmət etməklə yanaşı, effektiv qabaqlayıcı vasitə və həqiqi sülh yolunda vacib şərtlərdən biridir.

# “Tank biatlonu” müsabiqəsinin yarımfinalında iştirak edəcək komandalar arasında püşk atılıb

“Beynəlxalq Ordu Oyunları - 2021” yarışları çərçivəsində Rusiya Federasiyasının paytaxtı Moskva şəhəri ətrafında yerləşən “Patriot” parkında “Tank biatlonu” müsabiqəsinin yarımfinal mərhələsində iştirak edəcək komandaların avqustun 30-da püşkatma mərasimi keçirilib.



MüdafiəNazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komandaların rəhbərləri, məşqçilər və tank heyətlərinin iştirak etdiyi püşkatmanın nəticələrinə əsasən Azərbaycan tankçıları avqustun 31-də birinci divizionda Rusiya, Qazaxıstan və Çin komandaları ilə mübarizə aparacaqlar.

Yarımfinalda Azərbaycan komandası qırmızı, Rusiya komandası göy, Çin komandası sarı, Qazaxıstan komandası isə yaşıl rəngdə olan tanklarda yarışacaqlar.

# Azərbaycanda koronavirus infeksiyasına 3107 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 3107 yoluxma faktı qeydə alınıb, 1770 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 39 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 421 min 103 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 362 min 898 nəfər müalicə olunaraq sağalıb, 5 min 592 nəfər vəfat edib. Aktiv xəstə sayı 52 min 613 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 min 191, dünənə qədər isə ümumilikdə 4 milyon 442 min 244 test icra olunub.




# Azərbaycanda dünənə qədər koronavirusa qarşı 6 milyon 689 min 31 vaksin vurulub

Avqustun 30-da Azərbaycanda 1225 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 768, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 457 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 6 milyon 689 min 31, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 43 min 744, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 2 milyon 645 min 287 nəfər təşkil edir.




# “YAŞAT” düşərgəsi başa çatıb

“YAŞAT” Fondunun və “ASAN Könüllüləri” Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən “YAŞAT” düşərgəsi başa çatıb.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, düşərgənin sonuncu günündə Elektron Hökumətin İnkişafı Mərkəzinin əməkdaşları tərəfindən “Süni zəka: kodla və oyna”, “Data elmi və tətbiq sahələri” mövzuları üzrə təlim proqramları keçirilib.

Eyni zamanda, iştirakçılar üçün hovuz və əyləncə saatı təşkil olunub.

Sonra “YAŞAT” düşərgəsinin bağlanış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, “YAŞAT” Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov, fondun Himayəçilik Şurasının üzvləri Sevinc Alızadə, Anar İsgəndərov, “ASAN Könüllüləri” Təşkilatının sədri Emiliya Bayramova və digər qonaqlar iştirak ediblər.

Qonaqlar uşaqlarla birgə şam ediblər.

Günün sonunda tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə düşərgənin qala gecəsi təşkil olunub.

Düşərgə ərzində uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, tanınmış şəxslər, peşəkarlar, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar və müğənnilərin iştirakı ilə konsert proqramları keçirilib.

Düşərgə şəhidlərimizin 8-11, 12-14, 15-18 yaş kateqoriyasında olan övladlarını əhatə edib.

Həmçinin tərəfdaşlar tərəfindən iştirakçılara müxtəlif hədiyyələr təqdim edilib.

Düşərgə boyunca uşaqlar sığortalanıblar və davamlı olaraq həkim nəzarəti və psixoloqlar tərəfindən müşayiət olunublar. Psixoloqlar tərəfindən müxtəlif terapiyalar keçirilib, o cümlədən fərdi və kollektiv görüşlər, konsultasiyalar zamanı aşkarlanmış problemlər üzrə müalicəyə ehtiyacı olan uşaqlar müəyyənləşdirilib və fond tərəfindən düşərgədən sonra müalicə prosesinə cəlb olunacaqlar.

Düşərgədə “İNNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzi tərəfindən innovativ düşünmə tərzinin aşılanması məqsədilə yarışmalar, habelə robotexnika, yuxarı yaşlı uşaqlar üçün isə “Hakaton” keçirilib.

Qeyd edək ki, iyulun 12-dən şəhid övladları üçün başlayan yay düşərgələri avqust ayının sonuna qədər davam edib. Ümumilikdə 300-dək uşağı əhatə edən 6 düşərgə həyata keçirilib. Hər düşərgə ümumilikdə 6 gün 5 gecəni əhatə edib.

Düşərgənin media dəstəkçiləri Azərbaycan Televiziyası (AzTV), İctimai Televiziya (İTV) və ASAN Radiodur.

Düşərgənin baş sponsorları “Lankaran springs” hotel, “PMD Hospitality”dir.

Sponsorlar “Elektron Hökumətin İnkişafı Mərkəzi”, “İnnovasiyalar Mərkəzi”, “PAŞA Bank”, “PAŞA Həyat”, “Bravo”, “Nar”, “Gazelli Group”, “Rabitəbank”, “Turanbank”, “Decoria”, “AMO Group”, “Slavyanka”, “Azərsun”, “Shokki Mokki”, “Əli və Nino”, “Oven”, “Happy day cake”, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), “Gənc Psixoloqlar” İctimai Birliyi, logistika dəstəyi: Bakı Nəqliyyat Agentliyi, regional olimpiya kompleksləridir.

# Baş Narkotiklərlə Mübarizə İdarəsinin keçirdiyi əməliyyatlar zamanı 91 kiloqramdan çox narkotik vasitə aşkarlanıb

Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi, qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətiriləcək realizə olunması və sosial şəbəkələrdə onlayn yolla satışı ilə məşğul olan şəxslərin ifşası istiqamətində silsilə əməliyyatlar davam etdirilir.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş İdarə əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında Yardımlı rayonunun Mirimli kəndində həyata keçirdikləri növbəti tədbir zamanı həmin kənd sakini Ağagül Qarayev narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsini təşkil etməkdə şübhəli bilindiyi üçün saxlanılıb. Onun Mirimli kəndində yerləşən evinin həyətindəki yardımçı tikiliyə baxış zamanı 52 kiloqram 49 qram heroin, 328 qram marixuana, 2 kiloqram 585 qram psixotrop maddə metamfetamin və satışı qadağan olunan psixotrop tərkibli 300 metadon həbi aşkarlanıb.

Araşdırma zamanı müəyyənləşdirilib ki, Ağagül Qarayev xarici ölkələrdən birində yaşayan və Azərbaycana qaçaqmalçılıq yolu ilə narkotik maddələr göndərməyə çalışan narkotacirlərlə sıx əlaqələr yaradıb. Daha sonra o, narkotik vasitələri Yardımlı rayonunun ərazisində qəbul edib. Ağagül Qarayevin əsas məqsədi əldə etdiyi yüksək təsiredici xassəyə malik külli miqdarda narkotik vasitəni hissə-hissə Bakıda müxtəlif şəxslərə çatdıraraq qanunsuz dövriyyəsini təşkil etmək olub. Saxlanılan şəxs ifadəsində törətdiyi əməli etiraf edərək narkotik maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsini və paylanılmasını təşkil etdiyini bildirib.

Baş İdarə əməkdaşlarının Abşeron rayonunda həyata keçirdikləri digər əməliyyat zamanı sosial şəbəkələrdə narkotik vasitələrin onlayn yolla satışını təşkil edən Mehran Musayev və tanışı Əli Mirzəyev saxlanılıb. Onların üzərində şəxsi axtarış aparılan zaman ümumilikdə 132 qram heroin aşkarlanıb. Həmçinin Mehran Musayevin idarə etdiyi avtomobilə baxış zamanı əlavə olaraq 10 kiloqram 490 qram heroin, 3 kiloqram 360 qram marixuana, 200 qram tiryək, 1 kiloqram 440 qram metamfetamin və 200 metadon həbi aşkarlanıb.

Əməliyyat tədbirlərinin davamı olaraq, Mehran Musayev və Əli Mirzəyev ilə birgə narkotik vasitələrin onlayn yolla satışını həyata keçirən dəstənin digər üzvləri Beyləqan rayonunda saxlanılıblar. Əməliyyat zamanı Rövşən Quliyev və onunla birlikdə Vüsal Əhmədov, eləcə də Böyükağa Ağayev tutulublar. Saxlanılan zaman onların üzərindən 45 qram heroin aşkar edilib. Bu şəxslər ifadələrində xarici ölkələrdən birində yaşayan narkotacirin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə göndərdiyi külli miqdarda narkotik vasitələri satmaq məqsədilə Beyləqan rayonunun Qaradağlı kəndində qəbul etdiklərini bildiriblər. Tədbirin davamı olaraq Rövşən Quliyevin Beyləqan rayonunda yaşayan qohumunun evində gizlətdiyi əlavə 16 kiloqram 325 qram heroin, 2 kiloqram 515 qram marixuana və 1 kiloqram 280 qram psixotrop maddə olan metamfetamin aşkar edilib.

Aparılan araşdırmalar zamanı müəyyənləşdirilib ki, Mehran Musayev, Əli Mirzəyev, Rövşən Quliyev, Vüsal Əhmədov və Böyükağa Ağayevdən ibarət dəstə üzvləri xaricdə yaşayan narkotacirlər tərəfindən narkokuryerliyə cəlb ediliblər. Onlar onlayn yolla satdıqları narkotik maddələrdən əldə etdikləri külli miqdarda pul vəsaitlərini müxtəlif maliyyə əməliyyatlarının köməyi ilə həmin şəxslərin hesablarına köçürüblər.

Baş İdarənin və Cənub Bölgəsində Regional Şöbəsi əməkdaşlarının paytaxtın Yasamal, Səbail və Biləsuvar rayonlarında həyata keçirdikləri əməliyyatlar zamanı isə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan daha üç nəfər saxlanılıb. Əməliyyatlar zamanı Cəlilabad sakini Şamil Nuriyeva Yasamal, Məhərrəm Fariqov Səbail, Seyran Musayev isə Biləsuvar rayonunda tutulub. Onlardan ümumilikdə 1 kiloqram artıq heroin, metamfetamin və elektron tərəzilər aşkarlanıb.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb, zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir. Sonuncu əməliyyatlar zamanı Baş İdarənin əməkdaşları ümumilikdə 91 kiloqramdan çox “kola” və “kakos” adlandırılan heroin və “patı”, “şüşə” kimi tanınan metamfetamin, eləcə də 500 ədəd metadon həbini qanunsuz dövriyyədən çıxarıblar. Saxlanılan şəxslər məhkəmələr tərəfindən tutularaq barələrində həbs qətimkan tədbirləri seçilib.

DİN bir daha vətəndaşlara müraciət edərək bildirir ki, sosial şəbəkələrdə xarici ölkələrdəki narkotacirlər tərəfindən idarə olunan səhifələrdən onlara asan yolla varlanmaq üçün narkotik vasitələrin satışını təklif edən şəxslərin yalan vədlərinə inanmasınlar. Həmin şəxslərin narkokuryerlik təklifinə indiyədək müsbət cavab verən şəxslərdən isə könüllü olaraq bu yoldan imtina etməyi tövsiyə edirik. Əks halda narkokuryerliklə məşğul olan, narkotik vasitələrin onlayn satışını həyata keçirən, bu maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsini təşkil edən şəxslərin anket məlumatları DİN-in istifadəsində olan ən son texnologiyalar vasitəsilə həyata keçirilən əməliyyat-texniki tədbirlərlə müəyyənləşdiriləcək və onlar qısa zamanda saxlanılaraq cinayət məsuliyyətinə cəlb ediləcəklər.


## MARAQ MƏKTUBLARININ QƏBUL EDİLMƏSİNƏ DAİR ELAN (MƏSLƏHƏT XİDMƏTLƏRİ)

Azərbaycan Respublikası
Məşğulluğa Dəstək Layihəsi
Kredit Sazişinin №: 9044-AZ
Tapşırığın adı: Benefisiarların məlumatlarının təhlili üzrə proqram təminatının hazırlanması
İstinad nömrəsi (Satınalma Planına uyğun olaraq): AZ-MLSPP-218069-CS-QCBS

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsini həyata keçirmək məqsədilə Dünya Bankından cəlb edilən maliyyə vəsaitlərinin bir hissəsini məsləhət xidmətlərinin satın alınmasına yönəltmək niyyətindədir.

Məsləhət xidmətləri (“Xidmətlər”) Benefisiarların məlumatlarının təhlili üzrə proqram təminatının hazırlanması üzrə, 16 ay ərzində icra olunmaqdan ibarətdir (2021-ci ilin mart ayında başlayacağı gözlənilir).

Ətraflı Texniki Tapşırıq ilə aşağıdakı linkdən tanış olmaq olar: https://docs.google.com/document/d/14a1-z7BbGqRS3i6DcLKPnyvtP4qb8kJs/edit?usp=sharing&ouid=105638557535015383602&rtpof=true&sd=true

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi, uyğun məsləhətçi şirkətləri qeyd olunan xidmətlərin təmin edilməsində maraqlı olduqlarını bildirməyə dəvət edir. Xidmətlərin həyata keçirilməsində maraqlı olan məsləhətçi şirkətlər müvafiq təcrübə və ixtisaslarını göstərən məlumatları təqdim etməlidirlər. Qısa siyahıya düşmək üçün meyarlar: Üstünlük məşğulluq layihələri və xidmətləri üzrə proqram və avadanlıq tələbləri üçün təhlillərin aparılması təcrübəsi (0-30 bal); Proqram və avadanlıq infrastrukturu tələblərinin təchizi üçün texniki şərtlər və texniki tapşırıqların hazırlanması təcrübəsi (0-25 bal); İdarəetmə informasiya sistemləri/proqram təminatı üzrə cəlb olunan işçilər üçün təlimlərin təşkili, istifadəçi təlimatlarının hazırlanması təcrübəsi (0-25 bal); Monitorinq və qiymətləndirmə tənzimləmələri ilə əlaqəli mobil tətbiqlərin hazırlanması təcrübəsi (0-20 bal). Qısa siyahı mərhələsində əsas işçi heyəti qiymətləndirilməyəcək.

Maraqlı olan məsləhətçilərin diqqəti Dünya Bankının 2016-cı ilin iyul, 2017-ci ilin noyabr və 2018-ci ilin avqust aylarında yenidən baxılmış (“Satınalma Qaydaları”), 2016-cı ilin iyul tarixli “İLM üzrə Borcalanlar üçün Satınalma Qaydaları” sənədinin Bölmə III, 3.14, 3.16 və 3.17-ci bəndlərinə yönəldilir ki, bu da Dünya Bankının maraqların toqquşmasına dair siyasətini təyin edir.

Məsləhətçi şirkətlər öz ixtisasını artırmaq üçün əməkdaşlıq qura bilərlər, lakin dərnəyin ortaq müəssisə və / və ya sub-konsultasiya şəklində olub-olmadığını aydın şəkildə göstərməlidirlər. Birgə müəssisə olduqda, ortaq müəssisədəki bütün tərəfdaşlar seçildiyi təqdirdə müqavilə üzrə ortaq və ayrı-ayrılıqda öhdəlik daşıyırlar.

Məsləhətçilərin seçim prosesi “Satınalma Qaydaları” ilə müəyyən edilmiş məsləhətçilərin keyfiyyət və qiymətə əsaslanan seçim metoduna uyğun olaraq keçiriləcəkdir.

Əlavə məlumatı iş saatı ərzində (bazar ertəsi-cümə günləri saat 09:00-dan 18:00-a kimi) aşağıda göstərilən ünvandan əldə etmək olar.

Maraq məktubları 17 sentyabr 2021-ci il tarixədək aşağıdakı ünvanlara (şəxsən, məktub şəklində, faks və ya elektron poçt vasitəsilə) göndərilməlidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi
Kimə: Hüseynqulu İsmayılov, Satınalma üzrə mütəxəssis
Nazim Hikmət, 27, Rich Plaza, 2-ci mərtəbə
AZ1100, Bakı, Azərbaycan E-mail: huseyngulu.ismayilov@esp.az

## Türkiyənin Zəfər Bayramı

# Tarix yazan şanlı türk ordusu

Əski qaynaqlara görə, qədim türklərdə belə bir inanc formalaşmışdı ki, Ulu Tanrı cahanda barış və əmin-amanlığın qurulması görəvini onların üzərinə qoymuşdur. Təsadüfi deyil ki, türk millətinin son minillik tarixi qəhrəmanlıq olayları ilə doludur. Malazgird, Kosova, Çanakkala savaşları, 1919-1923-cü illərin İstiqlal savaşı milli tarixin qızıl hərflərlə yazılmış səhifələridir. Vətən həm də dədə-baba məzarlarının yerləşdiyi müqəddəs yurddur. Onun uğrunda ölüm-dirim savaşına qalxmış türk əsgərləri öz canlarından keçmişlər. Bu savaşların gedişində 50 milyondan çox şəhid verilmişdir.

Bu millətə belə bir düşüncə hakim olmuşdu ki, Yer üzündə nizam-intizam və əmin-amanlıq yalnız ordunun sayəsində mümkün ola bilər. Böyük türk cahangiri Mətə xaqan nizam-intizamın bir ordu üçün igidlikdən də üstün olduğunu anlayaraq tarixin ən intizamlı ordusunu qurmuşdu. O, igidlik və hərbi məharəti sərt intizamla birləşdirərək türk irqini əbədiləşdirmişdi. Təsadüfi deyil ki, bu gün də türk ordusu öz nizam-intizamı, bacarıq və məharəti ilə seçilir və barış missiyası yerinə yetirdiyi ölkələrdə sevilir, ona sayğı ilə yanaşırlar.

Onların tarix boyu qazandığı zəfərlərin kökündə mənəvi amillərlə yanaşı, həm də hərb sənətini gözəl bilməsi, dövrünün ən yeni və mütərəqqi taktikalarına sahib olması dururdu. Təsadüfi deyil ki, odlu silah çıxanadək türklərin tətbiq etdiyi ay-para, qurd oyunu, qaçdı-qovdu taktikaları həmişə onlara az qüvvə ilə çoxsaylı düşmən üzərində zəfər qazandırmışdır. Qədim türklər döyüş meydanında at belində deyil, xəstələnərək yataqda ölməkdən utanar və xəcalət çəkərdilər. Onlar oxla hədəfi sərrast vurmaq üçün savaş zamanı havanın yağmurlu keçməsindən xoşları gəlməzdi. Baharın gəlişilə ilk göy gurultusu hərbi təlimlərə başlamaq üçün bir işarə olardı. Təlim zamanı 840 addım məsafəyədək ox atardılar.

Türklər heç zaman dövlətsiz olmamışlar. Onlar tarix yaratmış, ancaq bu barədə az yazmışlar, daha doğrusu, qayalar, daşlar üzərində kitabələr həkk etməklə kifayətlənmişlər. Səlcuqlu və Osmanlı dönəmində baş vermiş qanlı savaşlar zamanı dövlətçilik ənənələri daha da zənginləşmiş, ordu elit bir qüvvəyə çevrilmişdir. Müasir Türkiyə Cümhuriyyəti isə türk millətinin XX yüzillikdə cahan tarixinə qızıl hərflərlə yazmış olduğu bir qəhrəmanlıq əsəridir.

Birinci Dünya müharibəsi zamanı türklərin doğma yurdları uğrunda savaşları sonucda qurtuluş hərəkatına gətirib çıxardı. İngilis və fransız orduları Çanaqqalaya hücum edən zaman əmin idilər ki, özlərinin üstün silahları və təlimləri qarşısında Balkan müharibəsindən çıxmış yorğun və təchizatı zəifləmiş türk əsgəri heç bir şey edə bilməyəcəkdir. Hətta müttəfiq kimi türk ordusundakı alman zabitləri də eyni düşüncədə idilər. Lakin Ənvər Paşanın sərt intizamı ilə il yarım ərzində hazırlanan ordu, yetkin və fədakar zabitlərin komandanlığı altında, birə qarşı iki ölərək, onları durdurub qaçırtdı. Çünki ruhlarını zəfər inancı bürümüşdü. Osmanlı türkü dünyanın böyük güclərinə qarşı Birinci Dünya savaşına 2,8 milyon əsgərlə girmiş və ondan 560 min qazi ilə çıxmışdır. Verdiyi şəhidlərin qanı yerdə qalmadı. Öz qanı bahasına islam və türk torpaq coğrafiyasında müstəqil dövlətlərini qurdular.

1919-cu il mayın 19-da Mustafa Kamal Paşanın Samsuna çıxması ilə Qurtuluş savaşı başlandı. Həmin ilin dekabrında Ankaraya gələn Kamal Paşa 1920-ci ilin aprelində Türkiyə Böyük Millət Məclisini (TBMM) qurdu. Beləliklə, bütün məmləkətin idarəçiliyi xalqın iradəsinə tabe edildi. Həm də Qurtuluş savaşının mərkəzi Ankara oldu. “Milli Xartiya sərhədləri içində vətənin bir bütün olduğu və parçalanmayacağı görüşü” əldə rəhbər tutulmaqla düşmənə qarşı mücadilə etmək qərara alındı.

Beləliklə, təşkil edilən nizami ordularla savaşa başlanıldı. İlk uğurlar Şərq cəbhəsində Rusiyadan və Qərb ölkələrindən xeyli miqdarda silah-sursat almış 150-200 minlik erməni-daşnak dəstələrinə qarşı qazanıldı. Daha sonra Qərb cəbhəsində yunanlara qarşı Birinci və İkinci İnönü savaşlarının qazanılması ilə yunanlara böyük bir zərbə endirildi. Ardınca yunan ordusu yenidən hücuma keçdi. Bununla əlaqədar Kamal Paşa savaşa girəcək türk ordusuna “Xətti müdafiə yoxdur, səthi müdafiə vardır. Bu səth bütün vətəndir. Vətənin hər qarış torpağı vətəndaşın qanı ilə islanmadıqca tərk olunamaz!” əmrini verdi. Türk əsgəri böyük bir əzm və fədakarlıqla bu qərara əməl etdi.

1921-ci il avqustun 23-dən sentyabrın 12-dək gecə-gündüz aramsız davam edən Sakarya savaşı türk millətinin müdafiə durumundan hücum vəziyyətinə keçdiyi önəmli bir savaş olaraq tarixə düşdü. Bu zəfərin sonunda TBMM tərəfindən Mustafa Kamal Paşaya “Qazi” adı və “Marşal” rütbəsi verildi. Türk tarixinin dönüş nöqtələrindən biri olan Sakarya meydan savaşından sonra böyük bir hücumla düşməni tamamilə məhv etmək qərara alındı.

Həmin günlərdə qalib türk ordusu dahi komandan Mustafa Kamal Paşanın başçılığı altında qazanmış olduğu zəfərlə yurdu düşmən qüvvələrinin işğalından azad etdi. Sakarya döyüşündə məğlub olan yunan birlikləri geri çəkilərək əvvəlcədən hazırlamış olduqları səngərlərdə və istehkamlarda mövqe tutdular. Bu mövqelər Əskişəhr, Kutahya və Afyonun şərqində yerləşirdi. Onlar bu mövqeləri vaxt keçirmədən sürətlə möhkəmləndirməyə başladılar. Məqsədləri uzun bir müdafiə savaşına hazırlaşmaq idi. Belə bir şəraitdə sentyabrın 14-15-də səfərbərlik elan edildi. Qısa zamanda Qərb cəbhəsinə 200 min nəfərlik qüvvə cəmləndi. Ancaq bir xaricinin ifadəsilə desək, “türk ordusu çılpaq deyiləcək dərəcədə pis geyindirilmişdi”.



Sayca üstün olan yunanlar isə daha yaxşı təchiz olunmuşdular.

Kamal Paşa 1922-ci il mayın 6-da Məclisə gəldi və qapalı müşavirə keçirdi. Uzun izahatlardan və sərt müzakirələrdən sonra keçirilən səsvermədə 15 bitərəf, 11 əleyhinə və 177 lehinə olmaqla “Baş Komandanlıq haqqında Qanun” yenidən qəbul olundu. Nəhayət, ordu bütün hazırlığını yenicə tamamlamışdı ki, 1922-ci il iyunun 16-da Baş komandan Mustafa Kamal Paşa Böyük hücuma başlamaq haqqında qərar qəbul etdi. O, baş qərargah rəisinə, milli müdafiə nazirinə və ordu komandanlarına hücum üçün gizlicə lazım olan tədbirlərin görülməsi əmrini verdi. Qarşı-qarşıya duran iki ordunun canlı qüvvə və tüfəng baxımından qüvvələri demək olar ki, eyni idi. Lakin yunan ordusu pulemyot, top, təyyarə, nəqliyyat vasitələri, döyüş sursatı və digər ehtiyaclar baxımından çox üstün vəziyyətdə idi. Süvari qüvvələr baxımından isə türk ordusu üstün vəziyyətdə idi.

Məclis 1922-ci il iyulun 20-də təkrar baş komandanlıq səlahiyyətini müddətsiz olaraq Qazi Mustafa Kamal Paşaya verdi. Bu zaman bütün yurdda fövqəladə hazırlıq görülürdü. Elə başa düşülürdü ki, artıq bir ölüm-dirim savaşına başlanılacaqdır. Millət əlində nəyi varsa ordusuna verir və qəti zəfəri gözləyirdi. Vəziyyət olduqca ağır idi. Sakarya savaşından sonra piyada və topçuların döyüş ehtiyatı tükənmək üzrə idi. Bunları yenidən təchiz etmək lazım gəlirdi. Şərqdən və cənubdan qərbə göndərilən hərbi birliklərin və topçu qüvvələrinin oraya yetişməsi uzun bir vaxt almışdı. Çünki o günlərdə bu bölgədə dəmir yolu xətti yox idi. Əsgərlər piyada olaraq göndərilirdi. Döyüş sursatı, ərzaq və hər növ materiallar heyvanlarla, arabalarla daşınırdı.

Bu arada minlərlə sandıq döyüş sursatı, top və tüfəng müttəfiq dövlətlərin işğalı və nəzarəti altında olan İstanbuldan qaçırılır, çətinliklə və böyük təhlükələri dəf edərək Anadoluya gətirilirdi. Həmçinin Rusiya, İtaliya və Fransadan alınan silahlarla, miqdarı artırılan və yeni qoyulan vergilərlə, Hindistan müsəlmanlarının pul yardımı ilə ordunun silah, sursat, minik, ərzaq və palpaltar ehtiyacları ödənilirdi. Hərbi emalatxanalar gecə-gündüz çalışırdı. Pəncərə dəmirlərindən və dəmir yolu relslərindən süngü və xəncərlər hazırlanırdı. Yeni təyyarələr alınır, zədə almışlar isə təmir edilərək uçacaq hala gətirilirdi.

İyulun 28-də ordu komandaları arasında təşkil edilmiş futbol yarışına tamaşa etmək bəhanəsi ilə bütün komandanlar Akşehirə dəvət olundu. Kamal Paşa onlara Böyük hücumun təfərrüatları barədə məlumat verdi. Sonra Ankaraya dönərək hücum qərarını hökumətə bildirdi. Belə bir şəraitdə avqustun 6-da hücuma hazırlaşmaq üçün orduya gizli əmr verildi. Savaş hazırlığının bitməsinə baxmayaraq, Kamal Paşa son dəfə bir barış təşəbbüsü göstərdi. O, daxili işlər nazirini Avropaya göndərdi. Bir aya qədər Avropada görüşlər keçirən nazir London və Parisdə çox soyuq qarşılandı.

Mustafa Kamal Paşa avqustun 17-dən 18-nə keçən gecə gizli surətdə Ankaradan çıxaraq avtomobillə Konya yolu ilə Qərb cəbhəsi qərargahının yerləşdiyi Akşehirə gəldi. Onun Ankaradan ayrıldığını yalnız bir neçə nəfər bilirdi. Hətta avqustun 21-də Kamal Paşanın Çankayada bir “çay dəsgahı” təşkil etməsi haqqında xəbər də çıxdı. Halbuki o, avqustun 20-də Akşehirdə Qərb cəbhəsi qərargahında idi. Məlumata görə, bu arada iki gün ərzində Kamal Paşa “Çalıquşu” romanını oxumuş və onu çox bəyənmişdi. Komandanlarla keçirilən qısa bir toplantıdan sonra avqustun 26-da sübh çağı hücuma başlamaq haqqında qərar qəbul olundu.

Avqustun 24-də komandanlıq qərargahı Akşehirdən hücum cəbhəsinin arxasındakı Şuhut qəsəbəsinə köçürdü. Baş komandan və ordu generalları avqustun 25-də səhər tezdən Şuhutdan, hücumun idarə ediləcəyi Kocatəpənin cənub-qərbindəki çadır-qərargaha gəldilər. Həmin gün Anadolu bir ölüm sükutuna bürünmüşdü.

Avqustun 25-də gecə türk birlikləri bəzi yerlərdə düşmən mövqelərinə 400 metrədək yaxınlaşaraq veriləcək hücum əmrini gözləyirdilər. Mustafa Kamal Paşa sübh tezdən saat 4-də yuxudan oyanıb bir fincan qəhvə içdi. Sonra o, çadırının önündə “Allahım! Sən türk millətini və ordusunu müzəffər eylə!” söyləyib, atla Kocatəpənin zirvəsinə doğru irəlilədi (Xatırladaq ki, Səlcuq imperatoru Alparslan da Malazgird savaşından öncə bu tərzdə dua etmişdi).

Beləliklə, türk tarixinə Zəfər bayramı kimi daxil olmuş başlıca hücum əməliyyatları 1922-ci il avqustun 26-da səhər saat 04-30-da müzəffər türk ordusunun topçu birliyinin atəşi ilə başlandı. Savaşlar qısa zaman içində daha da genişləndi. Düşmən mövqeləri bir-birinin ardınca ələ keçirildi. Nə baş verdiyini anlamayan düşmən çaşqın bir vəziyyətə düşərək başını itirmişdi. Çünki türklərin hücumu yunanların heç gözləmədiyi bir zamanda və heç gözləmədiyi bir yerdən başlamışdı.

Həmin gün və ertəsi günü qanlı çarpışmalar davam etdi. Avqustun 27-də türk qoşunları düşməni qabağına qataraq Sincanlı və Afyon düzənliklərinə endilər. Afyon azad edildi. Düşmən böyük bir şaşqınlıq və şayiə içində özünə gəlməyə, qüvvələrini səfərbər etməyə macal tapmadı. Darmadağın edilmiş yunan hərbi birlikləri canlarını qurtarmaq üçün Dumlupınar-Uşak istiqamətində qaçırdılar. Yunan əsgərlərinin böyük bir qismi cənubdan Birinci ordu, şimaldan İkinci ordu birliklərinin təzyiqləri nəticəsində Aslihanlar bölgəsində sıxışdırıldı. Ancaq avqustun 28-29-da düşmənin arxa cəbhəsinə keçən türk birlikləri onların İzmirə doğru qaçış yollarını kəsdilər. Beləliklə, yunanların əsas cəbhəsi yarıldı və onlar iki yerə parçalandı. Bu əməliyyatın nəticəsi olaraq düşmənin beş diviziyadan ibarət bir qüvvəsi (40-50 min nəfər) Dumlupınar bölgəsində mühasirəyə alındı.

Bu sırada olduqca maraqlı bir olay yaşandı. Hücumun qızğın çağında 57-ci diviziyanın komandiri polkovnik Rəşad bəy qanlı savaşda ona həvalə olunmuş təpəni ilk cəhddə ələ keçirə bilməmişdi. Baş komandan onu telefona çağırıb bildirmişdi ki, onun ləngiməsi digər birlikləri pis vəziyyətdə qoyur. Rəşad bəy belə cavab vermişdi ki, “Yarım saatdan sonra hədəflərə varacağız. Narahat olmayın, Paşam”. Bunu söyləyəndən sonra polkovnik təkrar atəş xəttinə qaçmış və hər nəyin bahasına olursa-olsun bu yarım saat içində Çiğiltəpəni ələ keçirmək üçün diviziyanı yenidən hücuma qaldırmışdı. Lakin düşmən kəskin müqavimət göstərdiyindən yarım saat ərzində təpəni əldə etmək mümkün olmamışdı. Baş komandan yenidən ona telefon açır. Lakin polkovnik dərhal növbətçi zabiti yanına çağırıb ona bir kağız verib tapşırır ki, bunu şəxsən Paşaya oxuyarsan, mən səngərdən ayrıla bilmərəm. Zabit telefonda gözləyən Baş komandana belə cavab verir: “Rəşad bəy intihar etmişdir, Paşam. Sizə oxumaq üçün vidanaməni göndərdi: “Yarım saat içində bu mövqeni almaq üçün sizə söz verdiyim halda, sözümü yerinə yetirmədiyimə görə yaşaya bilmərəm...”

Polkovnik Rəşad bəyin növbətçi zabiti tərəfindən oxunan bu məktub bitən zaman dolmuş mavi gözlərini üfüqlərə zilləyən baş komandan Mustafa Kamal Paşa “Allah rəhmət eləsin” dedi və ruhunun dərinliklərinə çökən bir ağrı ilə “O, çox yaxşı bir əsgərdi” deyərək bu silah dostunu rəhmətlə anmışdı.

Türk ordusu düşmənə qəti və sarsıdıcı zərbəni avqustun 30-da endirdi. Səhər tezdən hər tərəfdən sıxışdırılan düşmən qüvvələri ilə türk birlikləri arasında bu bölgədə böyük bir meydan savaşı başlandı. Baş komandan Kamal Paşanın doğru-düzgün, məharətlə idarə etdiyi, yönəltdiyi bu savaşa Qərb cəbhəsinin komandanı İsmət Paşa haqlı olaraq “Baş komandan müharibəsi” adını vermişdi. Onun hərbi dühası sayəsində böyük bir uğurla rəhbərlik etdiyi bu savaşda bir gün içində yunan ordusunun əhəmiyyətli bir qismi məhv edildi, digər bir qismi isə əsir alındı.

Baş komandan elə həmin gün baş qərargah rəisi Fövzi Paşanı, Qərb cəbhəsi komandanı İsmət Paşanı (İnönü), ordu komandanları Yaqub Şevki və Nurəddin paşaları, qərargahın qurulmuş olduğu Çal kəndində toplayaraq yaranmış vəziyyəti dəyərləndirdi. Toplantının yekununda düşmənin sürətlə təqib edilməsi, İzmir və ətrafındakı qüvvələri ilə birləşə bilməməsi üçün üç istiqamətdən Egeyə doğru irəliləmək münasib bilindi. Bundan sonra Mustafa Kamal tarixi əmrini verdi: “Ordular! İlk hədəfiniz Ağ dənizdir. İrəli!”

Amansız təqibin sonunda türk birlikləri sentyabrın 2-də yunan əsgərləri tərəfindən xarabalığa çevrilmiş Uşak şəhərinə daxil oldular. Burada maraqlı bir səhnə yaşanmışdı. Çarpışan iki ordunun baş komandanları qarşı-qarşıya dayanmışdılar. Bir tərəfdə məğlub olmuş yunan ordusunun baş komandanı və əsir alınmış general Trikopis, digər tərəfdə isə qalib ordunun baş komandanı Mustafa Kamal Paşa. Kamal Paşa əsir alınmış yunan baş komandanına törətdiyi vəhşiliklərə rəğmən hörmətlə, səmimi davrandı. Təkəbbürlü deyildi. Trikopisi qonağı kimi qəbul edərək onunla xoş rəftar etdi (Səlcuq hökmdarı Alparslan da Malazgird savaşında Bizans imperatoru Roman Diogeni əsir alarkən ona qarşı bu cür hörmətlə davranmışdı).

Kamal Paşa savaşın sonuna qədər kiçik önəmsiz döyüşlər biçimində açıqlama verirdi. Həqiqəti dünyadan gizlədirdi. Səbəbi düşmən ordusunu məğlubiyyətdən qurtarmaq üçün böyük dövlətlərin baş vuracağı cəhdlərə yol verməməkdən ibarət idi. Buna baxmayaraq, atəşkəs anlaşması üçün cəhdlər də oldu. Bu vaxt türk ordusu İzmir yolunda idi. Yunanlar qaçarkən türk birlikləri də işğal altındakı yerlərə bir-birinin ardınca girirdilər. Gediz, Alaşehir, Eşme, Salihli, Manisa, Kula, Aydın, Nif (Kemal Paşa) azad edildi. Bu qovalama sentyabrın 9-da İzmirdə sona çatdı. Digər tərəfdən şimalda Eskişehir və Bursa tərəflərə irəliləyən türk birlikləri, bu iki bölgəni də qısa zamanda düşməndən təmizlədilər. Düşmən qoşunundan geriyə qalanlar Kapıdağ yarımadasına qaçaraq oradan gəmilərə minib uzaqlaşdılar.

İzmir limanı qayıqlara minə bilmək üçün bir-birini dənizə tullayan düşmən əsgərlərinin həm gülünc, həm də şərəfsiz görüntüləri ilə dolmuşdu. Kamal Paşa sentyabrın 10-da İzmirə gəldi. Şəhərin hökumət binasına tərəf gedən Paşanı salamlamaq, təbrik və təşəkkür etmək üçün hamı onu görməyə tələsirdi. Bu zaman İzmirdə böyük bir gərginlik yaşanırdı. Yunanların bir çoxu gəmilərlə qaçsa da, daha geridə bir yığın xarici, xüsusilə də yunan qalmışdı. Üç il əvvəl yunanların İzmiri işğal etdikləri zaman türklərə qarşı törətdikləri insanlığa zidd hərəkətlərin bu dəfə türklər tərəfindən onlara qarşı ediləcəyindən qorxurdular. Lakin qorxuları həqiqətə çevrilmədi. Tarix boyu türklərin barbarlığa eyni barbarlıqla cavab verməlırindən söhbət belə gedə bilməz. Bununla belə İzmirdə olan müttəfiq dövlətlərin təmsilçiləri türklərin etnik azlıqlara qarşı bir qisas almaq cəhdlərinin qarşısını almaq üçün Mustafa Kamalın yanına getdilər. Ancaq onların bu hərəkətlərinə də lüzum yox idi. Çünki Kamal Paşa bu məsələdə gərəkli tədbirləri görmüşdü.

Bu dövrdə yunanlar İzmirin yarısını atəşə tutub külə döndərmişdilər. Necə ki, qaçarkən geridə buraxdıqları digər kənd və qəsəbələri yandırdıqları kimi. Bu dəhşətli görüntünü Mustafa Kamal da ürək ağrısı ilə izləmişdi. Lakin düşüncələrini yaxın gələcəyin mədəni və çiçəklənən İzmirinə yönəltmişdi. Beləliklə, 1922-ci il sentyabrın 18-də Qərbi Anadolu işğalçı yunan birliklərindən tamamilə təmizləndi. Türk ordusu 15 gün ərzində savaşa-savaşa 400-500 km yol qət etdi. Bununla da yurdun bütövlüyü təmin edildi və Türkiyə Cümhuriyyətinin yaranmasına aparan yol açılmış oldu. Atatürk zəfərlə sonuclanan bu hərəkatdan bəhs edərək yazırdı ki, **“Bu əsər türk millətinin hürriyyət və müstəqillik fikrinin əbədi abidəsidir”.**

1922-ci il avqustun 30-da böyük zəfərlə sonuclanan Dumlupınar savaşını türk millətinin yenidən dirçəliş günü hesab etmək olar. Bu savaş Anadolu torpaqlarının “Türk vətəni” olduğunu bir daha düşmənə sübut etdi. 1935-ci ildən başlayaraq hər il avqustun 30-u Zəfər bayramı kimi qeyd olunur. Bu bayram eyni zamanda Türkiyə Cümhuriyyətinin və Quzey Kıbrıs Türk Cümhuriyyətinin milli bayamıdır. O zaman işğalçı qoşunlar ölkə hüdudlarını bir qədər gec tərk etsələr də, 30 avqust rəmzi olaraq ölkə ərazilərinin geri alındığı gün anlamındadır.

Bu zəfərin məntiqi yekunu isə müasir Türkiyə dövlətinin meydana gəlməsi oldu. Bu tarixi Türkiyə, Quzey Kıbrıs ilə yanaşı, çiyin-çiyinə qardaş Azərbaycan da böyük sevinc hissilə qeyd edir. Ancaq əvvəlki illərdən fərqli olaraq bu il qardaş Türkiyənin Zəfər bayramı ilə yanaşı, bütün türk dünyası daha bir Zəfər bayramını - noyabrın 10-da Azərbaycan Milli Ordusunun Ermənistan ordusu üzərində qələbəsinin ildönümünü qeyd edəcəkdir. Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində parlaq qələbə qazanmasında qardaş Türkiyənin Azərbaycanı qətiyyətlə müdafiə etməsi mühüm rol oynamışdır.

Bu gün qalib türk ordusunun üzərinə böyük bir vəzifə düşür. Bu da üç qitədə barışın və əmin-amanlığın qoruyub saxlanılması işinə öz töhfəsini vermək, regional münaqişələrin aradan qaldırılmasında vasitəçilik missiyasını yerinə yetirmək, beynəlxalq terrorizmə qarşı qətiyyətlə mübarizə aparmaqdır. Hazırda bu tarixi missiyanı çağdaş türk ordusu şərəf və ləyaqətlə yerinə yetirir.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

## Gədəbəydə ali məktəblərə qəbulda yüksək nəticələr qazanan gənclərlə görüş keçirilmişdir



Gədəbəy Rayon İcra Hakimiyyətində ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayaraq tələbə adını qazanmış gənclərlə görüş keçirilmişdir.

Rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayev tələbə adını qazanan məzunları təbrik edərək onlara milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər, savadlı gənclər olaraq ölkəmizin sosial-iqtisadi və mədəni həyatında fəal iştirak etməyi arzulamış, təhsilin inkişafına göstərilən dövlət qayğıkeşliyindən və bu sahədə əldə edilən uğurlardan danışmışdır.

Görüşdə qeyd olunmuşdur ki, bu il Gədəbəyin orta məktəblərini bitirən məzunlardan 13 nəfəri 600-dən, 33 nəfəri 500-dən yüksək bal toplamışdır. Ən yüksək nəticəni isə 664 balla Nərimankənd tam orta məktəbinin məzunu Sevin Hacıyeva göstərmişdir.

Tədbirin sonunda ali məktəblərə qəbul olan tələbələrə fəxri fərmanlar və hədiyyələr təqdim olunmuşdur.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Səyyar kitabxana xidməti təşkil olunub



Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba Rayon Mərkəzi Kitabxana Sisteminin oxuculara xidmət şöbəsi yeni layihə həyata keçirib.

Quba “Nizami” adına mədəniyyət və istirahət parkında səyyar kitabxana xidməti fəaliyyətə başlayıb. Sərgidə klassik Azərbaycan və xarici ədəbiyyat, ümumilikdə oxucuların marağını cəlb edən yeni kitablar nümayiş edilib. Layihə çərçivəsində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş “Nizami Gəncəvi ili” adlı kitab sərgisi iştirakçıların böyük marağına səbəb olub.

Yay mövsümündə mərkəzi kitabxana tərəfindən rayonun digər mədəniyyət və istirahət parklarında da bu kimi xidmətlərin göstərilməsi nəzərdə tutulub.

Səyyar xidmətin təşkilində əsas məqsəd kitabxana xidmətinin səviyyəsini yüksəltmək, gənclərdə mütaliə vərdişlərini və oxu mədəniyyətini inkişaf etdirməkdən ibarətdir.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

## Mingəçevirdə məzunlarla görüş keçirilib



Mingəçevir təhsildə əldə olunan nailiyyətlərinə görə ölkə səviyyəsində daim öndə olub. Həmin ənənə bu gün də davam edir. Pandemiya şəraiti ilə bağlı məktəblərin müəyyən məhdudiyyətlərlə fəaliyyət göstərməsinə baxmayaraq, mingəçevirli məzunların göstəriciləri bu il də xeyli yüksəlmişdir.

Keçən tədris ilində şəhər üzrə 600 bal toplayanların sayı 24 nəfər idisə, bu il həmin göstərici 35 nəfər olub. Həmçinin ötən il 9-cu sinfi fərqlənmə attestatı ilə bitirən şagirdlərin sayı 55 nəfər olmuşsa, cari il bu rəqəm 86 nəfərə çatıb. Eləcə də 11-ci sinfi fərqlənmə attestatı ilə bitirən şagirdlərin sayı 27 nəfərdən 51 nəfərə yüksəlib.

Mingəçevirdə şəhər rəhbərliyinin qəbul imtahanlarında yüksək bal toplamış şagirdlərlə görüş keçirməsi də ənənədir. ŞİH-nin başçısı İlham İsmayılovun iştirak etdiyi budəfəki görüşdə çıxış edənlər vurğulamışlar ki, Mingəçevir şəhərində əldə edilən uğurların əsas səbəbi dövlətin təhsil sahəsinə davamlı qayğıkeşlik və diqqət göstərməsidir. Şəhərdəki təhsil ocaqlarının demək olar ki, əksəriyyəti əsaslı təmir olunaraq müasir avadanlıqlarla təchiz edilmiş, bütövlükdə məktəblərin maddi-texniki bazası möhkəmlənmişdir.

Qeyd olunmuşdur ki, cari il ərzində şəhərdəki 13 nömrəli məktəb Heydər Əliyev Fondu tərəfindən yenidən qurularaq ən yüksək səviyyədə təchiz olunmuşdur. Eyni zamanda hazırda dövlət büdcəsi hesabına 12 nömrəli məktəb və İnteqrasiya təlimli internat tipli gimnaziya əsaslı təmir edilir.

Tədbirdə çıxış edən şəhər icra hakimiyyətinin başçısı əldə etdikləri uğurlara görə məzunları təbrik etmiş və onlara gələcək həyatlarında uğurlar arzulamışdır. O, həmçinin məzunların arzu, istək və təkliflərini dinləmiş, onları maraqlandıran sualları cavablandırmışdır.

Sonda yüksək bal toplayan məzunlara hədiyyələr təqdim edilmişdir.

***L.QULİYEV,***
***“Azərbaycan”***



# Günün idman manşeti








# Tokioda Azərbaycan paralimpiyaçılarından «qızıl yağışı»

## Paracüdoçularımız medalların əyarı və sayına görə bütün ölkələrdən öndədir





Yay Olimpiya Oyunları kimi paralimpiada da dünya idmansevərlərinin maraqla izlədiyi ən mötəbər turnirlərdən sayılır və bu dəfə Tokioda keçirilən yarışların hər keçən günü maraqlı anlarla yadda qalır. Planetin ən güclü paralimpiyaçılarının yarışdığı turnirdə gərgin idman mübarizəsinin şahidi oluruq. Azərbaycanda da hamı Tokiodan medal xəbəri eşitmək ümidi ilə yarışları izləyir. Sevindirici haldır ki, paralimpiyaçılarımız bu ümidimizi gözümüzdə qoymur.

Azərbaycan komandasının hesabında hələlik 13 medal var. Onlardan 9-u qızıl, 4-ü isə bürüncdür. Paracüdoçular Şəhanə Hacıyeva (48 kq), Sevda Vəliyeva (52 kq), Xanım Hüseynova (63 kq), Vüqar Şirinli (60 kq), Hüseyn Rəhimli (81 kq), Dürsədəf Kərimova (+70 kq) qızıl, Namiq Abaslı (66 kq) və İlham Zəkiyev (+100 kq) bürünc medala sahib olublar.

Paracüdo yığmamıza növbəti qızıl medalı Dürsədəf Kərimova qazandırıb. +70 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz 1/4 finalda Ukrayna idmançısı Anastasiya Harnikə, yarımfinalda Braziliya təmsilçisi Meq Emmerikə qalib gəlib. Finalda Qazaxıstan idmançısı Zarina Baybatina ilə qarşılaşan idmançımız qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.






Paracüdo üzrə yığmamızın lideri İlham Zəkiyev isə (+100 kq) budəfəki paralimpiadada 3-cü yeri tutub. 1/4 finalda Cənubi Koreya təmsilçisi Van-Gen Çoiyə uduzan Zəkiyev təsəlliverici qarşılaşmada yamaykalı Teador Subbaya qalib gələrək bürünc medal uğrunda görüşdə iştirak hüququ qazanıb. Şirin Şaripov (Özbəkistan) bürünc medal uğrunda görüşə çıxmadığından Zəkiyev karyerasında 4-cü paralimpiada medalını qazanıb. Xatırladaq ki, millimizin lideri "Afina-2004" və "Pekin-2008"-i qızıl, "London-2012"ni bürünc medalla başa vurmuşdur. İkiqat dünya və yeddiqat Avropa çempionu olan İ.Zəkiyev həmçinin "Bakı-2015" ilk Avropa Oyunlarının qalibidir.

Beləliklə, paracüdoçularımız "Tokio 2020"də medalların həm əyarı, həm də sayına görə liderdir. Bu sıralanmada Özbəkistan ikinci (2-2-2), İran üçüncü yeri tutub (2-0-0).

Amma bu da hələ hamısı deyil. 100 metr məsafəyə üzgüçülük yarışlarında Raman Saleh paralimpiya çempionu adını qazanıb. Nizəatma yarışlarında dünya rekordu müəyyənləşdirən para-atletimiz Həmid Heydəri də qızıl medala sahib olub. Elvin Astanov isə nüvəitələmə yarışlarında birinci olub. Uzunluğa tullanmada Səid Nəcəfzadə, pauerliftinqçi Pərvin Məmmədov da medalsız qayıtmayıblar. Onlar fəxri kürsünün üçüncü pilləsinə qalxıblar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Əfqan idmançılar da yarışa qoşuldular

Əfqanıstanda yaranmış ağır vəziyyətlə əlaqədar Paralimpiya Oyunlarına qatılmaq üçün bu ölkənin Tokioyaya gələn bilməyən iki idmançısı şənbə günü Yaponiyaya gedib.

Əfqan idmançılarla görüşən Beynəlxalq Paralimpiya Komitəsinin (BPK) prezidenti Endrü Parsons bu münasibətlə onları təbrik edib. Əfqan idmançıların Paralimpiya Oyunlarına qatılacağı gözlənilir.

Bununla bağlı yayılan xəbərdə bildirilir ki, əfqan idmançılar Kabuldan BPK-nın, BMT-nin qaçqınlar üzrə komissarının, Böyük Britaniya, Avstraliya və Fransa hökumətlərinin köməyi ilə təxliyə olunublar. İdmançılar Dubay vasitəsilə Parisə, sonra oradan Yaponiyaya gəliblər. Hava limanında başqaları üçün bağlı olan zonada lazımi prosedurlardan keçiblər.

Qeyd edək ki, Paralimpiya Oyunlarına Əfqanıstandan iki idmançının qatılacağı gözlənilirdi. Onlardan biri - Zəkiyə Hudadadi Əfqanıstanı Paralimpiya Oyunlarında təmsil edən ilk əfqan qadın olacaqdı.

Əfqanıstan komandasının Tokioya avqustun 17-də gəlməsi planlaşdırılsa da, ölkədə yaranmış məlum vəziyyətlə əlaqədar komandanın səfəri təxirə salınmışdı.






*Təkrar*

## Azərbaycan Respublikası Mərkəzi Bankı "Banklararası Kart Mərkəzi"nin "Ödəniş kartı sahəsində məlumat təhlükəsizliyi standartları"nın (PCI DSS) tələblərinə uyğunluğu üzrə auditin aparılması və PCI DSS sertifikatının alınması və SWIFT üzrə lokal infrastrukturun SWIFT cəmiyyətinin "İstifadəçi təhlükəsizliyinə nəzarət konsepsiyası"nın (CSCF) tələblərinə uyğunluğu üzrə auditin həyata keçirilməsi ilə bağlı

## açıq tender elan edir

Azərbaycan Respublikasının Mərkəzi Bankı aşağıdakı LOT-lar üzrə açıq tender keçirir.

**- 1-ci LOT üzrə tenderin predmeti:** Mərkəzi Bankın Banklararası Kart Mərkəzi infrastrukturunun "Ödəniş kartı sahəsində təhlükəsizlik standartları şurası" (bundan sonra PCI SSC) tərəfindən təqdim olunan "Ödəniş kartı sahəsində məlumat təhlükəsizliyi standartları"nın (Payment Card Industry Data Security Standards) aktual versiyasının (bundan sonra - PCI DSS) tələblərinə uyğunluğu üzrə illik əsasda 4 il müddətində auditin həyata keçirilməsi və müvafiq sertifikatın alınmasıdır.

**- 2-ci LOT üzrə tenderin predmeti:** Mərkəzi Bankın lokal SWIFT infrastrukturunun SWIFT cəmiyyəti tərəfindən "İstifadəçinin təhlükəsizliyi proqramı" (Customer Security Programme) çərçivəsində (bundan sonra - CSP) təqdim olunan "İstifadəçi təhlükəsizliyinə nəzarət konsepsiyası"nın (Customer Security Controls Framework) hər il yenilənən aktual versiyasının (bundan sonra - CSCF) tələblərinə uyğunluğu üzrə illik əsasda 4 il müddətində auditin həyata keçirilməsidir.

Tender proseduru 28 sentyabr 2021-ci il saat 15:00-da Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

*- tenderdə iştirak üçün yazılı müraciət;*
*- iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
*- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
*- tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
*- iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış (xarici iddiaçılar tərəfindən məlumat);*
*- iki nüsxədə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 11 noyabr 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
*- tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (Əsas şərtlər toplusuna əlavə edilən formada);*
*- iddiaçının müvafiq sahədə korporativ müştəriləri və son 2 (iki) il üzrə iş təcrübəsini (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu daxil olmaqla) əks etdirən məlumatlar;*
*- iddiaçının ixtisas uyğunluğuna dair tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 27 sentyabr 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 17 sentyabr 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasında əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

Hər bir LOT üzrə ayrılıqda iddiaçılar iştirak haqqı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankının aşağıdakı hesabına 200 (iki yüz) manat məbləğində vəsait köçürməlidirlər: Azərbaycan Respublikasının Mərkəzi Bankı

**Hesab №: AZ25NABZ01701190000000001944**
**M/h: AZ74NABZ01451700000000001944**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**SWIFT BIK: NABZAZ2C**

Xarici iddiaçılar iştirak haqqını ödəniş gününə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər: Correspondent Bank: FRNYUS33 Federal Reserve Bank of New York, corr. account number: 021088221 AZER, account № AZ25NABZ01701190000000001944, SWIFT BIK: NABZAZ2XXXX.

Xidmətlərin göstərilməsinə başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasından Azərbaycan dilində (xarici iddiaçılar həmçinin ingilis dilində) tərtib edilmiş tenderin Əsas şərtlər toplusunu əldə edə bilər. Tender üzrə əlaqələndirici şəxs: Fuad Səbziyev (Ödəniş sistemləri və hesablaşmalar departamentinin əməkdaşı).

Telefon: 493-11-22 (177), faks: 493-55-41, elektron poçt ünvanı: fuad_sabziyev@cbar.az.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "mebel və digər inventarların" açıq tender üsulu ilə satın alınması üzrə 23 iyun 2021-ci il tarixli yekun protokoluna əsasən "İdeal Office" MMC qalib elan edilmişdir. Qalib təşkilatla 30 avqust 2021-ci il tarixdə müqavilə imzalanmışdır.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC tərəfindən "Bakı şəhəri, Nərimanov rayonu, Ülvi Bünyadzadə küçəsi, 776-cı məhəllədə yerləşən "Cümə məscidi"nin bərpa-gücləndirmə işləri"nə dair layihə smeta sənədlərinin hazırlanmasının satın alınması üçün 30 iyul 2021-ci il tarixdə "Azərbaycan" qəzetində elan olunmuş elektron portal vasitəsilə keçiriləcək açıq tenderin vaxtları iddiaçı şirkətin müraciətinə əsasən dəyişdirilmişdir. Qiymət təklifinin (bank zəmanəti ilə) qəbulu vaxtı 02.09.2021-ci il saat 18:00-a, zərflərin açılış tarixi isə 03.09.2021-ci il saat 11:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***



**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**



**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


# ANAMA: "Ötən həftə 179 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, avqustun 23-dən 28-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 77, tank əleyhinə 31 mina və 107 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 179 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.





# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kollektivi kafedranın dosenti Zaur Əliyevə atası
**HÜMBƏT ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi Rayon Məhkəməsinin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə anası
**SİMUZƏR XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, Müfti Salman Musayev və idarənin kollektivi Milli Məclisin üzvü Cavanşir Paşazadəyə əzizi
**FAMİL AĞAHƏBİB OĞLU MİRİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AZƏRİ M-İ DRİLLİNG FLUİDS" MMC-dən Sultan Sultanov, Nikolas Hore, Azad Şahbazov, Akif İsmayılov, Yelena Ananченко, Xaliddin Tatliyev və müəssisənin kollektivi iş yoldaşları
**SÖHRAB SALMANOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Hikmət Süleymanlıya atası
**BƏXTİYAR SÜLEYMANLININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov və cəmiyyətin kollektivi "Azərişıq" ASC-nin sədrinin müşaviri Kamil Hüseynova bacısı
**MİNAYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi Maştağa Enerji Təchizatı və Satışı İdarəsinin məsul əməkdaşı
**RASİM ƏLİ OĞLU ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4940
Sifariş 1600
Qiyməti 40 qəpik